

# Prezident Qubadlının işğaldan azad olunmasının ildönümü ilə bağlı paylaşım edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qubadlının işğaldan azad edilməsinin ildönümü ilə bağlı sosial şəbəkə hesablarında video paylaşıb.**

**Paylaşımda deyilir:**
"Zəfər tariximiz - Qubadlının Ermənistan işğalından azad edilməsindən dörd il ötür".




## İqlim konfranslarında ilk "Çağrı mərkəzi"


Səhifə ⇨ 9

Xalqın qəzeti!

# Xalq qəzeti

№ 236 (30640) 26 oktyabr 2024-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## Azərbaycan–Qazaxıstan əlaqələri ortaq dəyərlərdən güc alır

*Qazaxıstan Respublikasının Prezidenti Zati-aliləri cənab Kasım-Jomart Tokayevə*



**Hörmətli Kasım-Jomart Kemeleviç!**

Qazaxıstan Respublikasının milli bayramı – Respublika Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

Sizin qardaş Qazaxıstanın hərtərəfli inkişafına yönəlmiş qətiyyətli siyasətiniz və həyata keçirdiyiniz islahatlar nəticəsində ölkəniz mühüm nailiyyətlər və uğurlar əldə etmiş, beynəlxalq aləmdə yüksək nüfuz qazanmışdır. Qazaxıstana hər səfərimdə çiçəklənən və müasir bir diyara çevrilmiş ölkənizi görməkdən böyük qürur duyuram.

Xalqlarımızın ortaq tarixi-mədəni köklərindən güc alan, qarşılıqlı inam və dəstəyə əsaslanan Azərbaycan–Qazaxıstan əlaqələrinin və əməkdaşlığının gündən-günə genişlənərək yeni məzmunla zənginləşməsi məmnunluq doğurur. Qarşılıqlı ali və yüksək səviyyəli səfərlər, müntəzəm təmaslar, müxtəlif sahələrdə imzalanan çoxsaylı sənədlər, həyata keçirdiyimiz birgə layihələr çoxşaxəli əməkdaşlığımızın inkişafında əhəmiyyətli rol oynayır. Bu mənada cari ilin martında Azərbaycana dövlət səfərinizi xüsusi qeyd etmək istərdim.

Azərbaycan qardaş Qazaxıstanla iqtisadiyyat, nəqliyyat-logistika, rəqəmsallaşma, infrastruktur, enerji, humanitar və qarşılıqlı maraq doğuran digər sahələrdə səmərəli tərəfdaşlığın inkişaf etdirilməsində və birgə layihələrin reallaşdırılmasında maraqlıdır.

Əminəm ki, Azərbaycan–Qazaxıstan əlaqələrinin həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə genişləndirilməsi, xalqlarımızın firavanlığı, ölkələrimizin və regionumuzun rifahı naminə əməkdaşlığımızın bütün sahələrdə dərinləşdirilməsi, strateji tərəfdaşlığımızın və müttəfiqliyimizin daha da möhkəmləndirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, fəaliyyətinizdə müvəffəqiyyətlər, qardaş Qazaxıstan xalqına daim əmin-amanlıq, rifah və firavanlıq diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 22 oktyabr 2024-cü il**

## İrəvanda delimitasiya-demarkasiya "davası"

Səhifə ⇨ 5

## Dünya cazmenləri Azərbaycan səhnəsində

Səhifə ⇨ 10

# Azərbaycanın BRICS ilə əməkdaşlığı milli maraqlarımıza uyğun qurulur



**Beynəlxalq münasibətlər sistemində özünü etibarlı tərəfdaş və müstəqil oyunçu kimi təsdiqləmiş Azərbaycan bu gün strateji mövqeyi sayəsində Avrasiya məkanında Şərqi Qərblə, Şimalı Cənubla birləşdirən ənənəvi və yeni kommunikasiya, nəqliyyat və enerji dəhlizlərinin keçdiyi mühüm logistika mərkəzi sayılır.**

Strateji əhəmiyyətli enerji, nəqliyyat və kommunikasiya layihələrinin həyata keçirilməsi nəticəsində ölkəmiz hazırda Avropanın enerji təhlükəsizliyi arxitekturasında mühüm yer tutur. Lakin son illərin geosiyasi reallıqları fonunda rəsmi Bakı siyasi və iqtisadi münasibətlərinin üfüqlərini daha da genişləndirməyi planlaşdırır. Bu baxımdan çoxqütblü dünyanın yaradılmasına öz töhfəsini verən BRICS ilə əməkdaşlıq Azərbaycanın milli maraqlarına cavab verir.

BRICS ilə münasibətlərin, ilk növbədə, iqtisadi əməkdaşlıq əlaqələrinin inkişafı Azərbaycan üçün əhəmiyyət daşıyır. Təşkilatla əməkdaşlıq Azərbaycanın qeyri-neft sektorunun inkişafı üçün yeni investisiya kanallarının yaradılmasına şərait yarada bilər. Məlumdur ki, Çin BRICS çərçivəsində çoxşaxəli əlaqələrin qurulmasında maraqlıdır və Azərbaycan təşkilatın verdiyi üstünlüklərdən faydalana bilər. Eyni zamanda, Çinin dünyanın ən böyük yaşıl enerji sərmayədarı olduğunu nəzərə alsaq, alternativ enerji resurslarının inkişafını prioritet istiqamət elan edən ölkəmizin bu sahədə əməkdaşlıq imkanlarını genişləndirmək şansı əldə edəcəyini gözləmək olar.

*(ardı 3-cü səhifədə)*

## Avropa İttifaqında böhran – İslamofobiya, Türkofobiya, indi də Ukraynafobiya

*"Köhnə qitə"nin düşüncə sistemində çatlar*



**İslamofobiya, Türkofobiya, indi də Ukraynafobiya. Siyahıya ifrat sağçılığı da əlavə etmək mümkündür. Bəli, Avropa İttifaqında, ümumən "Köhnə qitə"nin ayrı-ayrı institutlarında hazırda sadaladığımız ənənəvi stereotiplərlə yanaşı, Ukraynafobiya da vüsət alıb.**

Əslində, böyük ölçüdə, bunların hamısı psixoloji təsir bağışlayır. Amma üzərində dayanılmalı konkret məqamlar da var.

Müasir Avropanın, belə demək mümkünsə, yaşam sisteminin formalaşmasına təsir göstərən bir sıra amillər olub. Söhbət tarixi amillərdən gedir ki, onları da sosial, siyasi, mədəni və sair olmaqla müxtəlif qollara bölmək mümkündür. XVI əsrin reformasiyasını o zamankı sistemə üsyan kimi qiymətləndirsək, hərəkatdan sonra yaranmış quruluşun din amilinin mütləqliyini sıradan çıxardığını, ortaya yeni mədəniyyət qoyduğunu gördük. Bu mədəniyyətdə din məişətin tərkib hissəsi kimi çıxış etməyə başladı. Məişət düşüncəsi isə ehkamçılığı deyil, inkişafı tələb edirdi. Ardınca "Köhnə qitə" sənaye inqilabı dövrünə qədəm qoydu. Əlbəttə, bu dövrə uyğun əxlaq da formalaşdı. Proses o zamana qədərki əxlaq və düşüncənin sıradan çıxması ilə müşayiət olundu ki, durumu təbii qiymətləndirmək mümkündür.

*(ardı 4-cü səhifədə)*

# Bir tərəfin bəhri – Xəzər...

***Ölkəmizin su sərhədləri də etibarlı qorunur***




Səhifə ⇨ 11

## COP29 ekoloji fəlakətə qarşı qlobal mübarizə cəbhəsidir




Səhifə ⇨ 8

## “Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın birgə fəaliyyəti haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

2024-cü il avqustun 30-da imzalanmış “Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın birgə fəaliyyəti haqqında Əsasnamə” təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 oktyabr 2024-cü il**

## “Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında Özbəkistan Respublikası ərazisində müvəqqəti işləyən Azərbaycan Respublikası vətəndaşlarının və Azərbaycan Respublikası ərazisində müvəqqəti işləyən Özbəkistan Respublikası vətəndaşlarının əmək fəaliyyəti və hüquqlarının müdafiəsi haqqında Saziş”in təsdiq edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** 2024-cü il avqustun 23-də Daşkənd şəhərində imzalanmış “Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında Özbəkistan Respublikası ərazisində müvəqqəti işləyən Azərbaycan Respublikası vətəndaşlarının və Azərbaycan Respublikası ərazisində müvəqqəti işləyən Özbəkistan Respublikası vətəndaşlarının əmək fəaliyyəti və hüquqlarının müdafiəsi haqqında Saziş” təsdiq edilsin.

**2** Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə, Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinə tapşırılsın və Azərbaycan Respublikasının Mərkəzi Bankına tövsiyə edilsin ki, bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra onun müddəalarının həyata keçirilməsini təmin etsinlər.

**3** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Özbəkistan Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 oktyabr 2024-cü il**

## “Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə Özbəkistan Respublikasının Milli Qvardiyası arasında əməkdaşlıq haqqında Saziş”in təsdiq edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** 2024-cü il avqustun 23-də Daşkənd şəhərində imzalanmış “Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə Özbəkistan Respublikasının Milli Qvardiyası arasında əməkdaşlıq haqqında Saziş” təsdiq edilsin.

**2** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Özbəkistan Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 oktyabr 2024-cü il**

## Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 2 aprel tarixli 46 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Milli Ensiklopediyasının redaksiya heyəti haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 2 aprel tarixli 46 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 4, maddə 226 (Cild I) ilə təsdiq edilmiş “Azərbaycan Milli Ensiklopediyasının redaksiya heyəti haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

**1** 15-ci bənd üzrə:

1.1. birinci cümlədən “bir birinci müavini və” sözləri çıxarılsın;

1.2. ikinci cümlədə “Azərbaycan Milli Ensiklopediyası Nəşriyyat-Poliqrafiya Birliyində” sözləri “Azərbaycan Milli Ensiklopediyası” Elmi Mərkəzində” sözləri ilə əvəz edilsin;

1.3. üçüncü cümlədə “Birliyin” sözü “Mərkəzin” sözü ilə əvəz edilsin.

**2** 19-cu bənd üzrə:

2.1. birinci cümlədə “birinci müavini” sözləri “müavinlərindən biri” sözləri ilə əvəz edilsin;

2.2. ikinci cümlədə “və adi” sözləri “sadə“ sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 oktyabr 2024-cü il**

## “Azərbaycan Milli Ensiklopediyası redaksiya heyətinin yeni tərkibinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 1 noyabr tarixli 636 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 1 noyabr tarixli 636 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 11, maddə 2292 (Cild I) 1-ci hissəsi ilə təsdiq edilmiş Azərbaycan Milli Ensiklopediyasının redaksiya heyətinin tərkibi aşağıdakı redaksiyada verilsin:

**“Redaksiya heyətinin sədri**

Əliyev İlham Heydər oğlu – Azərbaycan Respublikasının Prezidenti

**Redaksiya heyəti sədrinin müavinləri:**

Əli Zadə Akif Ağa Mehti oğlu – AMEA-nın həqiqi üzvü, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Geologiya və Geofizika İnstitutunun baş direktoru

Quliyev İbrahim Said oğlu – AMEA-nın həqiqi üzvü, AMEA-nın vitse-prezidenti

Rzayev Anar Rəsul oğlu – Xalq yazıçısı, Azərbaycan Yazıçılar Birliyinin sədri

**Azərbaycan Milli Ensiklopediyasının baş redaktoru**

Həbibbəyli İsa Əkbər oğlu – AMEA-nın həqiqi üzvü, AMEA-nın prezidenti

**Azərbaycan Milli Ensiklopediyasının məsul katibi**

Nağıyev Tofiq Murtuza oğlu – AMEA-nın həqiqi üzvü, AMEA-nın vitse-prezidenti, “Azərbaycan Milli Ensiklopediyası” Elmi Mərkəzinin direktoru

**Redaksiya heyətinin üzvləri:**

Abdullayev Kamal Mehdi oğlu – AMEA-nın həqiqi üzvü, Xalq yazıçısı, Azərbaycan Dillər Universitetinin rektoru

Abıyev Ağacan Qulam oğlu – texnika elmləri üzrə fəlsəfə doktoru, professor

Bədəlbəyli Fərhad Şəmsi oğlu – Xalq artisti, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru

Bilalov Bilal Telman oğlu – AMEA-nın müxbir üzvü, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Riyaziyyat və Mexanika İnstitutunun şöbə müdiri

Budaqov Tahir Yaqub oğlu – Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri

Cəfərov Nizami Qulu oğlu – AMEA-nın həqiqi üzvü, Azərbaycanda Atatürk Mərkəzinin direktoru

Cəlilov Namiq Sərdar oğlu – AMEA-nın müxbir üzvü, Nəsirəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının baş direktoru

Eldarov Ömər Həsən oğlu – AMEA-nın həqiqi üzvü, Xalq rəssamı

Ələkbərov Urxan Kazım oğlu – AMEA-nın həqiqi üzvü, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru

Əlquliyev Rasim Məhəmməd oğlu – AMEA-nın həqiqi üzvü, AMEA-nın vitse-prezidenti, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin İnformasiya Texnologiyaları İnstitutunun baş direktoru

Əliyev Telman Abbas oğlu – AMEA-nın həqiqi üzvü, AMEA-nın müşaviri

Əliyeva Fərəh Şirməmməd qızı – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri

Əli-zadə Firəngiz Əli Ağa qızı – AMEA-nın müxbir üzvü, Xalq artisti, Azərbaycan Bəstəkarlar İttifaqının sədri

Fərzəliyev Vaqif Məcid oğlu – AMEA-nın həqiqi üzvü, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin akademik Əli Quliyev adına Aşqarlar Kimyası İnstitutunun baş direktoru

Hacıyev İsmayıl Muxtar oğlu – AMEA-nın həqiqi üzvü, AMEA-nın Naxçıvan bölməsinin sədri

Həşimov Arif Məmməd oğlu – AMEA-nın həqiqi üzvü, AMEA-nın akademik-katibi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Fizika İnstitutunun baş direktoru

Hüseynova İradə Məmməd qızı – AMEA-nın həqiqi üzvü, AMEA-nın vitse-prezidenti, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun baş direktoru

Xəlilov Fərhad Qurban oğlu – Xalq rəssamı, Azərbaycan Rəssamlar İttifaqının sədri

İsmayılov Amin İsmayıl oğlu – AMEA-nın müxbir üzvü, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Torpaqşünaslıq və Aqrokimya İnstitutunun laboratoriya müdiri

Kərimli Teymur Həşim oğlu – AMEA-nın həqiqi üzvü, AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru

Qədirov Fəxrəddin Əbülfət oğlu – AMEA-nın həqiqi üzvü, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Neft və Qaz İnstitutunun baş direktoru

Qəribov Adil Abdulxalıq oğlu – AMEA-nın həqiqi üzvü, AMEA-nın müşaviri

Mahmudov Yaqub Mikayıl oğlu – AMEA-nın həqiqi üzvü, AMEA-nın müşaviri

Mehdiyev Ramiz Ənvər oğlu – AMEA-nın həqiqi üzvü

Məhərrəmov Abel Məmmədəli oğlu – AMEA-nın həqiqi üzvü, Bakı Dövlət Universitetinin kafedra müdiri

Məmmədov Qərib Şamil oğlu – AMEA-nın həqiqi üzvü, AMEA-nın müşaviri

Məmmədov Nazim Timur oğlu – AMEA-nın həqiqi üzvü, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Fizika İnstitutunun laboratoriya müdiri

Muradov Şahbaz Musa oğlu – AMEA-nın müxbir üzvü, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutunun şöbə müdiri

Mustafayev Şahin Məcid oğlu – AMEA-nın həqiqi üzvü

Paşayev Arif Mir Cəlal oğlu – AMEA-nın həqiqi üzvü, Milli Aviasiya Akademiyasının rektoru

Rəsulov Əsgər Adil oğlu – Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin rəisi

Səmədzadə Ziyad Əliabbas oğlu – AMEA-nın həqiqi üzvü

Şükürov Kərim Kərəm oğlu – AMEA-nın Abbasqulu Ağa Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun baş direktoru

Vəlixanova Nailə Məmmədəli qızı – AMEA-nın həqiqi üzvü, Milli Azərbaycan Tarixi Muzeyinin direktoru.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 oktyabr 2024-cü il**

## Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində 2024-cü ilin noyabr ayında vətəndaşların qəbulu cədvəli

| *Qəbulu aparan şəxs* | *Qəbul günü* |
|---|---|
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri** Nağdəliyev Zeynal Səfər oğlu | 1 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri** Həsənov Kərəm Əvəz oğlu | 4 |
| **Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi** Həsənov Altay Tofiq oğlu | 5, 23, 29 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri** Əmirov Natiq Ərziman oğlu | 5 |
| **Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi** Qasımov Azər Məhəmməd oğlu | 5 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri** Hacıyev Hikmət Fərhad oğlu | 6 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri** Ələsgərov Fuad Murtuz oğlu | 7, 22 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri** Əliyeva Fərəh Şirməmməd qızı | 14 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri** Seyidov Fərid Mirmufid oğlu | 15 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri** Mövsümov Şahmar Arif oğlu | 8 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri** Məcidov Tələt Tahir oğlu | 19 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri** Məmmədəliyev Yusuf Ülfət oğlu | 19 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | 20 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | 20 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri** Vəliyev Ədalət Məqsəd oğlu | 2 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** İsmayılov Süleyman Abbas oğlu | 2 |
| **Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Məmmədov Məsim Əhməd oğlu | 25 |
| **Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Kərimov Aydın Zöhrab oğlu | 25 |
| **Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hüseynov Emin Zamin oğlu | 6 |
| **Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Yusubov Elçin Mustafa oğlu | 7 |
| **Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hacıyev Vahid Rasim oğlu | 8 |
| **Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hacıyev Bəşir Qüdrət oğlu | 8 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri** Kərimov Gündüz Hacı oğlu | 29 |
| * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi** Usubov Ramil İdris oğlu | 29 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev,79.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: Çağrı Mərkəzi – 1111.**

## Azərbaycan XİN-in Avropa İttifaqına etiraz notası

**Oktyabrın 25-də Avropa İttifaqının Azərbaycan Respublikasındakı səfiri Peter Mixalko Xarici İşlər Nazirliyinə çağırılıb və Avropa Parlamenti tərəfindən oktyabrın 24-də qəbul edilmiş qətnamə, eləcə də bu qurumda baş tutmuş müzakirələr çərçivəsində Avropa Komissarı tərəfindən səsləndirilən əsassız və qərəzli fikirlər qəti şəkildə pislənib və bununla bağlı qarşı tərəfə etiraz notası təqdim edilib.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, Aİ-nin müxtəlif institutları vasitəsilə Azərbaycana qarşı qarayaxma kampaniyasının davam etdirilməsinin, ölkəmizin suverenliyi və ərazi bütövlüyünə qəsd edən, onun daxili işlərinə müdaxilə edən bəyanat və addımların Ermənistanda revanşizmi təşviq etdiyi, bununla regionda sülh səylərinə xələl gətirdiyi vurğulanıb.

Azərbaycanın Avropa İttifaqı ilə münasibətlərini beynəlxalq hüququn norma və prinsipləri, qarşılıqlı hörmət, bərabərhüquqluluq və ümumi fayda prinsipləri əsasında qurduğu bildirilib, qarşı tərəf də bu fundamental prinsiplərə ciddi şəkildə əməl etməyə çağırılıb.

Avropa İttifaqı tərəfindən ölkəmizin suverenliyini və ərazi bütövlüyünü pozan, daxili işlərinə müdaxilə edən, regionda sülhə və sabitliyə xələl gətirən qərəzli addımlardan çəkinilməsi tələb olunub.

**XQ**

# Azərbaycanın BRICS ilə əməkdaşlığı milli maraqlarımıza uyğun qurulur

(əvvəli 1-ci səhifədə)

Avrasiyada mühüm tranzit qovşağına çevrilən ölkəmiz beynəlxalq yükdaşımaları və logistika infrastrukturunun qurulmasında maraqlıdır və bu sahədə BRIKS-ə üzv ölkələrlə çoxtərəfli əməkdaşlığın gücləndirilməsini vacib amil hesab edir. Eyni zamanda, Azərbaycan quru və dəniz ticarət yollarında yerləşən logistika qovşağı kimi yükdaşımalardan böyük dividendlər əldə edə bilər. Bundan başqa, Azərbaycandan keçən multimodullu logistika dəhlizlərinin BRICS vasitəsilə maliyyələşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Mütəxəssislərin fikrincə, bu təşkilat ilə çoxtərəfli əməkdaşlığımızı inkişaf etdirməklə perspektivli layihələri reallaşdırmaq imkanları əldə edə bilərik.

Onilliklər ərzində respublikamız beynəlxalq tərəfdaşlarla qarşılıqlı əlaqələrini balanslaşdırılmış və çoxvektorlu xarici siyasət üzərində qurmuşdur. Bu siyasətin davamı ölkəmizin 2011-ci ildə Qoşulmama Hərəkatına üzv seçilməsi olmuşdu. Həmin vaxtdan Azərbaycan bu təşkilatın beynəlxalq aləmdə fəallaşması üçün mühüm




işlər görür. 2019-cu ildən 2022-ci ilə qədər Azərbaycan Qoşulmama Hərəkatına sədrlik etmişdi və bu sədrliyin müddəti 2023-cü ilə qədər uzadılmışdı. Dünyada koronavirus pandemiyası və çoxsaylı münaqişələrlə yadda qalan bu dövrdə müstəqil dövlətimiz liderlik keyfiyyətlərini nümayiş etdirə bilmiş və ümumi problemlərin həlli üçün səy göstərmişdi.

Balanslaşdırılmış xarici siyasət artıq müsbət nəticələr verir və bu siyasət ölkəmizin regionda çəkisini artırır və bu fakt özünü bir çox problemlərin həllində göstərir. Azərbaycan torpaqlarının işğalı zamanı Qərbin qərəzli ermənipərəst siyasətindən fərqli olaraq, balanslaşdırılmış kursu rəhbər tutan rəsmi bir çox dövlətlər ilə, o cümlədən Qoşulmama Hərəkatına üzv ölkələr ilə səmərəlu qarşılıqlı əməkdaşlıq yarada bilmişdir.

Bir sözlə, xarici siyasəti beynəlxalq şəraitə adekvat olaraq quran ölkəmizin BRICS ilə əməkdaşlığı ölkənin milli maraqlarına və mövcud imkanlarına uyğun qurulur. Bu mənada Prezident İlham Əliyevin yeni dünya iqtisadi arxitekturasına mühüm detallar əlavə edəcək BRICS-in Kazan sammitində iştirak etməsi Azərbaycanın qlobal aktor kimi nüfuzunu daha da artıracaq.

**Səbuhi MƏMMƏDOV**
**XQ**

# Avroparlament “qoca qitə”nin problemlərini çözə bilmir

## *Amma başqalarına irad tutur, yol göstərir*



**Noyabrın 11-dən 22-dək Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) yaxınlaşdıqca, Qərbin müxtəlif ölkələri və təsisatları tərəfindən Azərbaycana qarşı hücumlar da intensivləşir. Demək olar ki, hər gün ayrı-ayrı media orqanlarında ölkəmizlə bağlı qərəzli yazılar dərc olunur. Müxtəlif təşkilatlar bəyanatlar verirlər. ABŞ-dəki, Fransadakı müəyyən dairələr, “Human Rights Watch”, “Freedom House” kimi təşkilatlar, Avropa Parlamenti bu sırada öndədirlər...**



Məsələn, “Human Rights Watch” təşkilatının “X” platformasındakı hesabında dünən edilən paylaşımda bildirilib: “Bu il COP29 qlobal iqlim konfransına evsahibliyi edən Azərbaycan növbəti onillikdə qaz hasilatını genişləndirməyi planlaşdırır. Bu planlar iqlim dəyişikliyi üzrə Paris sazişinin məqsədlərinə xələl gətirir”. Paylaşıma Azərbaycanın bu istiqamətdəki fəaliyyətinə kölgə salan, qərəzli fikirlərin əksini tapdığı 30 saniyəlik video da əlavə edilib.

Daha bir qərəzli məqalə ABŞ-nin “The National Security Journal” nəşrində dərc olunub. “Co Bayden Azərbaycanda iqlim, sülh və demokratiyanı avtobusun altına atır” sərlövhəli məqalədə bildirilib ki, Azərbaycanın COP29-a evsahibliyi etmək imkanı iqlim konfransı böyüdükdən və nüfuzu artdıqdan sonra BMT tərəfindən tətbiq edilən rotasiya qaydası ilə bağlı idi, lakin Bakı yeganə namizəd deyildi. Brendi ətraf mühitin qorunması olan (?) Ermənistan da konfransa evsahibliyi etmək arzusunda idi: “Azərbaycan əsir götürdüyü (?) erməni girovlarından sövdələşmə predmeti kimi istifadə edib. Vasitəçilərə bildirib ki, onları yalnız Ermənistan öz iddiasından əl çəkərsə azad edəcək”. Guya, İrəvanla Bakı arasında sülhə vasitəçilik etməyə çalışan Dövlət Departamenti Ermənistanın baş naziri Nikol Paşinyanı tələblərə əməl etməyə çağırıb: “Ermənistan iddiasını geri götürdü, lakin Azərbaycan erməni girovları (söhbət Bakıda saxlanılan separatçı “qlavarlar”dan gedir–S.H.) saxlamağa davam edir və beynəlxalq ictimaiyyətin Ermənistan kimi tanıdığı 200 kvadratkilometrdən çox ərazini “işğal altında” saxlayır”.

Bundan sonra yenə ölkəmizə Qarabağda hansısa etnik təmizləmə həyata keçirdiyi barədə böhtan atılıb. Qeyd edilib ki, guya, ermənilər Qarabağda min ildir yaşayırmışlar. Bundan əlavə, Azərbaycan “etnik təmizləmə”dən sonra regiondakı “erməni irsini” sistemli şəkildə “məhv etməkdə” suçlanıb: “Daha pisi odur ki, xarici nüfuzlu şəxslər, o cümlədən Vaşinqtonun beyin mərkəzlərinin və ABŞ-nin Azərbaycandakı səfiri qədim yaşayış məskənlərinə (Şuşada keçirilən bir sıra tədbirlərdə ABŞ nümayəndələrinin iştirakı və səfir Mark Libbinin bir müddət öncə qala şəhəri ziyarət etməsi nəzərdə tutulur–S.H.) qastrol səfərləri edirlər. Bakı öz “etnik təmizləmələrini” legitimləşdirməyə çalışdıqca belə turlar daha da artacaq”.

Mənzil-qərargahı Fransanın Strasburq şəhərində yerləşən Avropa Parlamenti isə oktyabrın 24-də “Azərbaycanda vəziyyət, insan hüquqlarının və beynəlxalq hüququn pozulması və Ermənistanla münasibətlər” adlı qətnamə qəbul edib. Bəri başdan qeyd edək ki, qətnamənin səs çoxluğu ilə qəbulu diqqəti cəlb edir. 720 nəfərlik parlamentin 453 üzvü qətnaməyə “hə” deyib. 89 nəfər bitərəf qalıb. Cəmi 31 nəfər isə onun əleyhinə çıxmaq üçün özündə güc tapıb. Halbuki Avropa Parlamentinin bundan öncəki qərəzli qətnamələri bu qədər dəstək görmürdü. İndi isə “sənədin” səs çoxluğu ilə qəbulu qurumda Azərbaycana qarşı çıxanların sayının artmasından xəbər verir. Bu məqam ənənəvi anti-Azərbaycançı qüvvələrin sevincinə səbəb olub. Məsələn, bir müddət öncə “Dağlıq Qarabağ ermənilərin etnik təmizlənməsi” gününü Avropa Parlamentində qeyd etmək təşəbbüsü ilə çıxış edən qurumun Cənubi Qafqaz ölkələri ilə əlaqələr üzrə nümayəndə heyətinin yeni seçilmiş sədr müavini, fransız diplomatı və siyasətçisi Natali Luazo “X” platformasındakı hesabında yazıb: “Fəxr edirəm ki, Avropa Parlamenti üzvlərinin böyük əksəriyyətini COP29 ərəfəsində onlara təqdim etdiyim Azərbaycanla bağlı qətnamənin lehinə səs verməyə inandıra bilmişəm. Qətnamədə hər şey deyilir və indi heç kim “Bakıdakı COP-un utanc COP-u (?) olduğunu bilmirdik” – deyə bilməyəcək”.

Birmənalı şəkildə qeyd etmək lazımdır ki, özünü demokratiyanın, söz və fikir azadlığının, insan hüquqlarının qorunmasının əsas siması kimi təqdim edən bu təsisatlar ölkəmizdən 2020-ci il Vətən müharibəsində qazandığımız Zəfərin və 2023-cü ildəki lokal xarakterli antiterror tədbirlərində suverenliyimizi bərpa etməyin, necə deyərlər, qisasını almaq istəyirlər. Qalan məsələlər hamısı, necə deyərlər, müqəddimə rolunu oynayır. Bu da gözlənilən idi. Qeyd etmək yerinə düşər ki, hələ 2024-cü ilin əvvəlində – yanvarın 10-da yerli televiziya kanallarına müsahibə verən Prezident İlham Əliyev il ərzində üzərimizə olacaq hücumları görmüş və siyasi uzaqgörənliklə demişdir: “Birincisi, biz hər zaman çox ayıq olmalıyıq, çünki bizə qarşı olan hərəkət, dediyimiz bu məsələlərlə bitməyəcək, bundan sonra da davam edəcək. Çünki biz dünya miqyasında çox böyük layları tərpətdik. Bəlkə də təhlilçilər görürlər ki, bizim Zəfərimizin bəzi ölkələr üçün fəsadları onlara çox baha başa gəlib. Biz böyük layları tərpətdik. Elə bir Zəfər çaldıq ki, bu, lokal əhəmiyyətli məsələ deyil. Bu, bir növ beynəlxalq gündəliyin əsas məsələlərinin birinə çevrilibdir”.

Dövlətimizin başçısının sözlərinə görə, təbii ki, bizə qarşı olan, ənənəvi mənbələrdən gələn mənfi münasibət dayanmayacaq. Ermənistanı silahlandırma cəhdləri bu məqsədi daşıyır ki, bizi daim təzyiq altında saxlasınlar. Bu, bizi bundan sonra da rahat yaşamağa qoymamaq üçün səylərdir və əfsuslar olsun ki, burada da Fransa yenə də ön plandadır. Bu gün Ermənistanı silahlandıran, onlara ürək-dirək verən, onların hərbçilərini hazırlayan və növbəti müharibəyə hazırlayan ölkə Fransadır: “Ona görə mən deyəndə ki, Fransanın siyasəti Qafqazda gərginliyin artmasına səbəb olur, məhz bunu nəzərdə tuturdum. Ermənistanda yersiz illüziyalar yarana bilər ki, nə vaxtsa onlar Qarabağı yenidən bizdən qopara bilərlər. Belə fikirlər onların cəmiyyətində dolaşır, o cümlədən rəhbər qruplaşma daxilində də belə fikirlər var. Mən istisna etmirəm ki, bu fikirlər, necə deyərlər, getdikcə daha geniş yer tutacaq. Ona görə biz heç vaxt sakitləşməməliyik...”

Cənab İlham Əliyev fevralın 14-də keçirilən andiçmə mərasimindəki çıxışı zamanı bu istiqamətdə fikirlərini bir qədər də inkişaf etdirmişdi: “Biz elə bir bölgədə yerləşirik, bizə qarşı elə bir qüvvələr birləşib ki, ziyan vurmaq üçün fürsət axtarırlar. Biz, – İkinci Qarabağ müharibəsi zamanı və antiterror əməliyyatı zamanı mən bunu artıq demişdim, – sarsılmaz hesab olunan elə daşları tərpətdik ki, bunu bizə bağışlamayacaqlar, biz bunu bilməliyik. Əgər kimsə hesab edir ki, bizdən əl çəkəcəklər, səhv edir. Biz hazır olmalıyıq, səfərbər olmalıyıq, əlbəttə ki, cəmiyyət rahat yaşamalıdır. Mən Azərbaycan üçün hər hansı bir təhlükə, təhdid görmürəm. Ancaq nə üçün görmürəm, çünki bilirlər ki, bizim cavabımız amansız olacaq, sarsıdıcı olacaq və heç nəyə baxmadan o cavab veriləcək”.

Zənnimizcə, “qoca qitə”nin bütün problemlərini bir kənara qoyaraq, hazırda yenidən ölkəmizə qarşı “hücuma” keçməsini başqa cür qiymətləndirmək mümkün deyil. Bu gün Avropa çoxlu çağırışlarla üzləşib. Qitənin özünün həllini gözləyən ciddi roblemləri var. Avropa İttifaqının 27 ölkəsindən olan vergiödəyicilərinin pulları hesabına yüksək əməkhaqqı alan parlamentarilər zəhmət çəkib həmin problemlərin həlli ilə məşğul olsunlar.

Avroparlamentin Azərbaycanın, guya, Ermənistan ərazilərini “işğal” etməsi iddiası, öz qoşunlarını Hayastandan geri çəkməsi çağırışı ilə bağlı qeyd etmək lazımdır ki, bu məsələdə də onlar ermənidən betər ermənilik edirlər. Məsələ ondadır ki, baş nazir Paşinyan bir neçə gün öncə parlamentdəki müzakirələr zamanı “işğal olunmuş əraziləri” hərbi yolla geri qaytarmaq vəzifəsini qarşıya qoymadıqlarını, Azərbaycanla imzalanan demarkasiyaya dair sənədin demarkasiya prosesinin hüquqi və qanuni əsaslarla keçirilməsi üçün hər cür imkan yaratdığını bildirmişdi. Belə olan təqdirdə Avropa Parlamentinin qərəzi bir daha aydın şəkildə özünü göstərir.

Mövzu üzrə fikirlərini XQ ilə bölüşən **politoloq Ramiyə Məmmədova** bildirdi ki, Avropa Parlamenti indiyədək ölkəmizlə bağlı saysız-hesabsız qətnamələr qəbul edib. Onun sözlərinə görə, bu mənada qurumun qəbul etdiyi yeni sənəd nə maraq doğurur, nə də təəccüblü gəlir: “Avropa Parlamenti azərbaycanlılar 1988-ci ildə tarixi yurd yerlərindən qovulanda, Xocalı və digər soyqırımları baş verəndə, torpaqlarımız işğal olunanda, işğal dövründə ərazilərimizdə müxtəlif cinayətlər törədiləndə, sanki bunları görmürdü. Avropa Parlamenti 44 günlük Vətən müharibəsi zamanı Ermənistan ordusunun Azərbaycanın cəbhə xəttindən xeyli uzaqda yerləşən şəhərlərini bombalayanda, mülki insanlar həlak olanda da özünü görməzliyə vurdu. Qurumun “görmədiyi” məsələlər arasında Vətən müharibəsindən sonra ərazilərimizin minalarla çirkləndirilməsi, dinc insanların bu gün də həyatını itirməsi və sair hallar var. Bu baxımdan indi qəbul olunan qətnamənin də qərəzsiz sənəd kimi qəbul olunması mümkün deyil”.

R.Məmmədova qeyd etdi ki, qəbul olunan qətnamənin məqsədi, sadəcə, ölkəmizin beynəlxalq imicinə zərbə vurmaq məqsədi daşıyır: “COP29-la bağlı bir müddətdir ki, ölkəmizə qarşı təzyiqlər başlayıb. Onlar Azərbaycanı nüfuzdan salmaq üçün açıq mübarizə keçiblər. Eyni zamanda, ölkəmizin güclənməsi də burada öz sözünü deyir. Bu gün əksər dövlətlər Azərbaycanla əməkdaşlığa can atırlar. Avroparlamentin qərarı isə Azərbaycanı inkişaf yolundan geri döndərə bilməyəcək”.

Politoloq bildirdi ki, Avropa Parlamenti hazırda sülh müqaviləsinin imzalanması üçün Azərbaycana dəstək göstərməlidir, amma biz bunun əksini görməkdəyik. Əksinə, Avropa ölkələri Ermənistanı silahlandırır, onu növbəti müharibəyə sövq edirlər. Bunun üçün diplomatik səviyyədə də iş aparırlar. Bundan öncə Avropa Şurası Parlament Assambleyasının da qərəzli yanaşmaları olmuşdu. Biz bu quruma da adekvat cavab verdik. Ölkəmizin əleyhinə səs verənlərin ölkəyə girişi yasaqlandı. Avropa Parlamenti də mövqeyindən geri çəkilməsə, biz bundan heç nə itirməyəcəyik.

Müsahibimiz, həmçinin dedi ki, Avropa Parlamentinin qitə ölkələrini Azərbaycandan təbii qaz almamağa çağırmasından isə ən çox elə Avropa dövlətləri ziyan çəkəcək. Rusiya–Ukrayna müharibəsi fonunda avropalılar qaz almaq məsələsində ciddi çətinliklə üzləşəcəklər. Azərbaycan isə heç nə itirməyəcək.

Onu da bildirək ki, Avropa İttifaqının Azərbaycandakı səfiri Peter Mixalko dünən Xarici İşlər Nazirliyinə çağırılıb. Avropa Parlamenti tərəfindən oktyabrın 24-də qəbul edilmiş qətnamə, eləcə də bu qurumdakı müzakirələr çərçivəsində Avropa komissarı tərəfindən səsləndirilən əsassız və qərəzli fikirlər qəti şəkildə pislənib və bununla bağlı qarşı tərəfə etiraz notası təqdim edilib. Aİ-nin müxtəlif institutları vasitəsilə Azərbaycana qarşı atdığı addımların Ermənistanda revanşizmi təşviq etdiyi, bununla regionda sülh səylərinə xələl gətirdiyi vurğulanıb.

***Səxavət HƏMİD***
***XQ***

# Avropa İttifaqında böhran – İslamofobiya, Türkofobiya, indi də Ukraynafobiya

**(əvvəli 1-ci səhifədə)**

Əlbəttə, iqtisadi inkişafın gətirdiyi müsbət meyillərlə yanaşı, mənfi çalarlar da nəzərə çarpdı və tədricən kütləviləşdi. Orta əsrlərin Avropa fəlsəfi sistemi inkişaf fonunda özünü çılpaq göstərən eybəcərliklərə qarşı müqavimət əzmi formalaşdırmağa girişdi. Nəticədə insan hüquq və azadlıqları məsələsi gündəmə gəldi. Ancaq istinad nöqtəsi keçmiş oldu. Nəzərə alaq ki, bəşəri prinsiplərin ümumiləşdirilmiş obrazı rolunda çıxış edən demokratiya keçmişin məhsuludur. Demos xalq, kratos hakimiyyət, yəni, xalq hakimiyyəti.

*

Birinci dünya müharibəsinə səbəb olmuş amillər göstərdi ki, Avropa tamamilə yeni yaşam tərzinin arzusundadır. Müharibə, böyük ölçüdə, həmin tərzə qovuşmaq, onu əldə etmək uğrunda idi. Lakin savaşın yarımçıq qaldığını deyə bilərik, çünki o, yeni tərz gətimədi. Yəqin, həm də bu səbəbdəndir ki, bir çox tədqiqatçılar İkinci dünya müharibəsini birincinin davamı kimi qiymətləndirirlər.




Bəli, II Dünya müharibəsindən sonra yaranmış sistem tam fərqli idi. İnsanlıq, o cümlədən Avropa insanı müharibənin nə olduğunu gördü, onun dəhşətini həqiqi mənada yaşadı və bu, bəşəri dəyərlərin qorunmasının mütləqliyi məsələsində immunitet formalaşdırırdı. İmmunitet o qədər güclü idi ki, əvvəla, hər kəs öz rolunu yaxşı onyadı. Digər tərəfdən, iki dünya müharibəsinə seyrçi kimi qalmış, heç bir ciddi çətinlik görməmiş ABŞ-nin "Köhnə qitə"ni keçmiş SSRİ-nin timsalında kommunizmə qarşı qaldırmaq cəhdləri uğursuz oldu. Baxmayaraq ki, savaşdan sonrakı Avropa Birləşmiş Ştatların maliyyəsi ilə dirçəlmişdi. Yeri gəlmişkən, Vaşinqton pulu ona görə xərcləmişdi ki, Avropa kommunizmə qarşı dimdik dayansın. Axı dayanmasaydı, "bəla" okeanı "üzüb" ona tərəf gələcəkdi, bunun elementləri hiss olunurdu.

Əlqərəz, vaxt ötdükcə ABŞ-nin, necə deyərlər, əlini cibinə nə üçün atdığı anlaşıldı. SSRİ-nin süqutundan sonra isə bu, lap yaxşı dərk edildi. Elə həmin vaxtdan başlayaraq, "Köhnə qitə"nin lap əvvəl iqtisadi inkişafa və tərəqqiyə maneçilik törədən cəhətlərə, sonra nasizmə, daha sonra kommunizmə qarşı insan haqları və demokratiya üzrə silahlanmış və mütərəqqi sayılan institutları, sanki, maskalarını çıxarıb bir kənara atdılar və gerçək üzlərini göstərməyə başladılar. Məlum oldu ki, bəşəri dəyərlərə istinad yalnız SSRİ-nin həmin dəyərlərə zidd mahiyyətinə qarşı müqəddəslik ruhu formalaşdırmaq, tutarlı alternativ ortaya qoymaq əzminin məhsulu olan imitasiya imiş, başqa heç nə. Bir halda ki, sovet quruluşu ömrünü başa vurdu, rol oynamağa da ehtiyac qalmadı.

Ancaq ABŞ imkan vermədi ki, Avropa "soyuq müharibə" dövrünün geridə qalmasını, SSRİ ilə mübarizənin qələbə ilə nəticələnməsini əməlli başlı toy-bayram etsin. Çünki Sovetlər Birliyi sıradan çıxsa da, Rusiya qalırdı. Deməli, yola davam edilməli idi və edildi də. Özü də eyni qaydada. İnsan hüquq və azadlıqları, demokratiya məhfumları ilə. Ancaq SSRİ ilə mübarizə dövründəki siyasi-mədəni əxlaqa qayıdış mümkünsüzə çevrildi. Axı imitasiya uzun zaman almışdı və maskalar çıxarılanadək onun çətinliklərinə çox dözülmüşdü. Yenidən maskaları taxmaq isə əvvəlki effekti verə biməzdi və vermədi də.

*

Beləliklə, bəşəri dəyərlərə münasibətdə eybəcərlik müşahidə olunmağa başladı. Bu dəyərlər SSRİ ilə "soyuq savaş" dövründəki kimi mənəvi sipər rolunda çıxış edə bilmədi və bilavasitə ikili standartlar siyasətinin alətinə çevrildi. Yaşananlar nəticədə Avropa sisteminin böhranı reallığını doğurdu. Əslində, İslamofobiya, Türkofobiya, ifrat sağçılıq və hazırda yenicə təşəkkül tapmağa başlamış Ukraynafobiya da həmin böhranın nəticəsidir. Böhran Avropa düşüncə tərzində çatların olduğunu göstərir.

"Köhnə qitə"nin sistem böhranının bir çox təzahürləri var. Bu baxımdan Avropa İttifaqının müxtəlif institutlarının rüşvət və korrupsiyaya qurşanmasından tutmuş, bölgəni başına almış homoseksuallığa qədər eybəcərlikləri, çirkinləşmə təmayüllərini göstərmək mümkündür. Bunların hamısını isə ümumiləşdirilmiş formada inkarçılıq adlandırmaq olar. Söhbət öz-özünü inkar etməkdən gedir. İnkarçılıq isə qorxudan və əminsizlikdən qaynaqlanır və bunlar bir-biri ilə üzvi surətdə bağlı məsələlərdir. Bu məqama qayıdacağıq.

Hələlik isə onu deyək ki, Avropanın böhranı, bütövlükdə, qitənin malik olduğu, öyündüyü dəyərlər sistemini məhv edir. Axı insanları dininə, dilinə, irqinə və siyasi mənsubiyyətinə görə fərqləndirmək düzgün sayılmırdı. Axı belə hesab edilirdi ki, bu sayaq mənfi meyillər feodalizm, quldarlıq dövrünün məhsullarıdır. Necə oldu ki, keçmişin çirkinliklərinə qayıdış aktullaşdı? Səbəb birdir – saxtakarlıq. Məlum olur ki, bəşəri dəyərlərə tapınma da məqsədli imiş və ruh halının məhsulu deyilmiş. Çətinlik yaranan kimi prinsiplər ikinci plana keçirmiş, olmazlar olurmuş.

Bəli, Avropa sistemi çətinlik yükünü aradan qaldırmaq gücündə deyil. Təbii artıma malik müsəlmanların qitəyə axını isə balansı pozur, əvvəldə haqqında söz açdığımız yaşam tərzi üçün rahatlıq göstəricilərini azaldır. İslamafobiya buna görə yaranıb. Eləcə də Türkofobiyanı götürək. Əlbəttə, burada ərəb xilafətinin və özünü onun mənəvi davamçısı sayan Osmanlı imperiyasının da təsirləri var. Ancaq Avropa insanının yadına tarix bir o qədər düşmür. O, bu gününü yaşayır və pəncərədən bayıra baxanda müsəlman görüb əsəbiləşir. Əsəbin yaranma səbəbi də sistemdir. Daha doğrusu, ondakı çatlar.

Sistem iqtisadi yükü qaldıra bilmir, qaldırmaq üçün hansısa vasitə tapmaqda acizdir. Ən asan yol qorxudur. Ona görə də hazırda Avropa İttifaqı və digər qurumların, eləcə də "Köhnə qitə" dövlətlərinin yaratdıqları və ya eybəcərliklərə göz yumaraq təbii şəkildə formalaşdırdıqları qorxu mühitidir. Qorxu həm də çətinliklərə qarşı müqavimət əzminin nəticəsi kimi meydana çıxır. Bəzən məqsədli şəkildə ona əsas verən ssenarilər də düşünülür. Məsələn, Fransanın "Charle Hebdo" satirik jurnalı İslam peyğəmbərini (s.ə.s.) təhqir edən karikatura yayımlayır. Aydındır ki, buna radikal yanaşan müsəlmanlar tapılacaq. Onların adekvat saydıqları, əslində, adekvatlıqdan tam uzaq qəddar davranışları da olacaq.

Deməli, hər şey düşünülüb. Söz və ifadə azadlığı adı altında "Charle Hebdo"nun özbaşınalığına göz yumanlar nəşrə qarşı çıxacaq müsəlmanların hərəkətlərini də hesablayıblar. O hərəkətlərin nəticəsində yaranacaq qorxunu da, qorxu səbəbilə formalaşacaq psixoz durumu da həmçinin. Hər halda, "Avropa avropalılar üçündür" kimi şüarlar elə-belədən meydana çıxmayıb. Axı sistem müsəlman axınının qarşısını başqa cür ala bilmir.

*

Ukraynafobiya da eyni məzmunlu təmayüldür. Avropanın, ümumilkdə, Qərbin bir çox institutları bəh-bəhlə Ukraynanı Rusiyaya qarşı mübarizəyə kökləd ilər. Guya, demokratiya tiranlıq üzərində qələbə qazanacaqmış. Bu istiqamətdə təbliğatlar getdi. Ardınca Qərb mediası rus əsgərlərinin əsir düşmələri, cəsur ukraynalıların dönməzliyi kimi səhnələri tirajladı. Elə durum formalaşdı ki, sanki Rusiyanın məğlubiyyəti an məsələsidir.

Ancaq artıq iki ildən çoxdur ki, Rusiya – Ukrayna müharibəsi gedir və savaşın nə zaman bitəcəyi məlum deyil. Mövcud durumda Avropanın resursları da tükənir. Ona görə də Ukraynafobiyanı məhz bu zəmində yaranmış psixoloji hal kimi də dəyərləndirmək mümkündür. Sistem müharibənin gətirdiyi çətinliyə adekvat reaksiya imkanından məhrum durumda olduğundan, Ukraynaya münasibətdə məqsədli antipatiya yaradılır. Ancaq bu antipatiyanın başqa motivi də var. İslamofobiya və Türkofobiya daha çox qorxu zəminində müsəlman amilinə qarşı mübarizə mahiyyətlidirsə, Ukraynafobiya üçün xəyanət seqmenti aktualdır. Yəni, qorxu Ukraynanı yarı yolda qoymaq, onu taleyin ümidinə buraxmaq xaraktersizliyindədir. Deməli, Ukraynafobiya, belə demək mümkünsə, daha şərəfsiz təzahürdür.

Rusiya Prezidenti Vladimir Putin illər əvvəl Qərbin ölkəsinə tərəf istiqamət götürməsi reallığını qabardaraq, bunun yolverilməzliyini, milli maraqlara zidd təmayüllərini açıqlayarkən bildirmişdi ki, Moskvanın adekvat davranışı sayəsində yaranacaq savaş bütövlükdə Avropanın Rusiya ilə müharibəsi halına gələcək. Putin Fransa prezidenti Emmanuel Makronu Moskvada qəbul edərkən belə demiş və bir ritorik sual da ünvanlamışdı: Fransızlar Rusiya ilə döyüşmək istəyirlərmi?

Hadisələr Putinin vurğuladığı kimi də oldu. Ukrayna müharibəsi "Köhnə qitə"-nin anti-Rusiya cəbhəsinə çevrildi. Bu gün məlum olur ki, nəinki fransızlar, heç almanlar, ispanlar, ingilislər də Rusiya ilə döyüşmək istəmirlər. Ukraynafobiya həm də bu təzahürün nəticəsi kimi meydana çıxıb. Əminliklə demək olar ki, Avropa insanı müharibənin dolayısı ilə onun özünün də başında çatlayan məhrumiyyətlərinə dözmək istəmir. Mövcud durumda Avropa İttifaqı və başqa bu kimi qurumların onsuz da tənəzzül dövrünü keçirən sistemləri lap iflic olur. Düşüncə kasadlığı və ya düşüncəsizlik, habelə, siyasi lider amilinin istisnalığı şəraitində durum bir qədər də mürəkkəbləşir.

*Əvəz CAHANGİROĞLU*
*XQ*

# Avropanın kütləvi miqrant ölümlərində təqsir payı

**Bu gün dünyanın diqqətini məşğul edən əsas beynəlxalq problemlərdən biri miqrasiya məsələsidir. Son illərdə, xüsusən 2011-ci ildən start götürmüş məşhur "ərəb baharı" siyasi layihəsinin həyata keçirilməsindən sonra məhz Yaxın Şərq, Şimali Afrika ölkələrindən, eləcə Əfqanıstandan və İraqdan böyük insan seli Avropaya üz tutub. Bu cür kütləvi miqrasiya hallarına, təbii ki, həmin ölkələrin sakinləri məcbur olublar. Bu, onların vətənlərində ABŞ və Avropa tərəfindən həyata keçirilən amansız "demokratiya", "insan hüquqları" uğrunda "mübarizə" siyasəti, o cümlədən, aclıq, səfalət ilə bağlıdır. İnsanlar baş vermiş dəhşətli vətəndaş müharibələrindən, qan-qadalardan, kütləvi ölüm hallarından qaçmaq üçün onları öz vətənlərindən didərgin düşməyə məcbur edən Avropa ölkələrinə qaçıblar.**



İnsanların üz tutduqları ünvanlar sırasında Avropa İttifaqına (Aİ) üzv ölkələr ilk sıradadır. Bunlar əsasən Almaniya, Fransa, Avstriya, İtaliya, Malta və habelə İngiltərədir. Təbii ki, kütləvi insan axını çox böyük miqyas aldığından sonrakı illərdə Aİ ölkələri miqrasiya siyasəti ilə bağlı tədbirləri yenidən gözdən keçirir və qanunları sərtləşdirməklə bu axının qarşısını almağa çalışırlar. Amma miqrasiya son vaxtlar bir qədər səngisə də, bugünədək davam etməkdədir. Yaxşı həyat, yüksək təminat arzusu ilə Avropa ölkələrinə üz tutan miqrantlar çox hallarda çıxdıqları yolda, xüsusən dənizlərdə qəzalara uğrayır və kütləvi şəkildə tələf olurlar.

Bütün dünya son illərdə dəniz yolu ilə Avropa və Qərb istiqamətinə yol alan miqrant gəmi və qayıqlarının qəzaya uğraması, əsasən kiçik qayıqların çox yüklənmə səbəbindən aşması nəticəsində kütləvi ölüm halları barədə məlumatlardan xəbərdardır. İnsanlar bir çox hallarda ölkələrindəki qan-qadadan yaxa qurtarmaq üçün istismar müddəti ötmüş, nasaz gəmi və qayıqlarda min kilometlərlə yol qət etməli, nəticədə qəzalar üzündən həyatlarını itirməli olublar. Bununla bağlı yüzlərlə fakt göstərmək olar. Təkcə onu xatırladaq ki, Birləşmiş Millətlər Təşkilatının Miqrasiya Agentliyinin məlumatına görə, 2019-cu ilin əvvəlindən Avropa ölkələrinə 29 min 844 qeyri-leqal miqrant və qaçqın gəlib. 2018-ci ilin müvafiq dövründə Avropa ölkələrinə gələn qaçqınların sayı 46 min 411 nəfər olub, 1414 qaçqın isə Aralıq dənizində boğularaq həyatını itirib. Beynəlxalq Miqrasiya Təşkilatının məlumatında qeyd olunur ki, ümumilikdə, Yunanıstan və İspaniya bu insanların 82 faizini qəbul edib. BMT-nin Miqrasiya Agentliyinin hesabatında bildirilir ki, 2014-cü ildən 2018-ci ilədək Avropaya yollanan miqrantların 30 min 510 nəfəri həlak olub. 2021-ci ildə 4,4 mindən çox miqrant ölüb.

İspaniyanın "Caminando Fronteras" ("Sərhəd müdafiəçiləri") qeyri-hökumət təşkilatının açıqladığı hesabata görə, 2024-cü ilin yanvar-may aylarında Şimali Afrikadan İspaniya sahillərinə uzanan qeyri-qanuni miqrasiya marşrutunda 5054 nəfər həyatını itirib. 2023-cü ildə bu rəqəm 6007 olub. Bu ilin ilk beş ayında Kanar adaları yolunda 47 qayıq batıb, qəzaların heç birində sağ qalan olmayıb. Bu insanları kütləvi şəkildə ölkələrini tərk etməyə vadar edən, təbii ki, Avropa və Qərb olub. Lakin onlar Suriyadan, İraqdan, Liviyadan, Yəməndən və digər ölkələrdən qaçqın saldıqları insanların kütləvi şəkildə qapılarını döyməsindən xəbərsiz kimi, məsuliyyətdən boyun qaçırmağa cəhd göstərirlər.

Münaqişələrdən və aclıqdan qaçan insanların əksəriyyəti Avropa sərhədlərində zorakılıqlarla üzləşir. Yollarda tələf olan miqrantlarla, faciəli şəkildə həyatlarını itirən insanlarla yanaşı, yaşadıqları Avropa ölkələrində yerli əhalinin sərt ittihamları və antimiqrant nümayişlərlə qarşılaşan, sərtləşdirilən qanunlar qarşısında aciz qalan miqrantlar növbəti faciələrlə üzləşməli olurlar.

Miqrantların Almaniya, Fransa, Yunanıstan və digər Avropa ölkələrində üzləşdikləri problemlər sırasında antisemit və islamafob meyillərin güclənməsi də ciddi maneələr yaratmaqdadır. Almaniyada fəaliyyətə başlayan ksenofob və antimiqrant PEGİDA hərəkatı getdikcə genişlənməkdədir. Nəticədə bu cür qruplaşmalar tərəfindən bilərəkdən miqrantlara qarşı kampaniyalar təşkil olunur. Beynəlxalq təşkilatlar bu məsələdə də susmağa üstünlük verirlər. Sanki dünya yalnız Avropa və Qərbdən ibarətdir, digər regionlarda yaşanan hadisələr və kütləvi şəkildə öldürülənlər insan deyil və onların hüquqları yoxdur.

Budur, Avropanı narahat edən problemlərdən biri miqrantların əksərən müsəlman olmasıdır. Miqrant və qaçqınların əksəriyyətinin İslam dininə mənsub olması avropalıları qıcıqlandıran məsələlərin önündə gəlir. Hətta antiislam meyilli və radikal düşüncəli, milliyyətçi avropalılar müsəlmanların ibadət evlərinin qapısına donuz başını asmaqdan belə çəkinmirlər, yaxud məscidlərin divarlarına yazılmış "müsəlmanlara ölüm", "rədd olun" şüarlarına da rast gəlmək mümkündür. Bu isə Avropanın bilərəkdən ksenofob və islamofob meyilləri aktuallaşdırmasına rəvac verməkdədir.

Miqrantların qəbul olunması ilə bağlı BMT-nin Aİ ölkələrinə verdiyi təkliflər isə uzun müddətdir ki, qulaqardına vurulur. Guya ki, nəzərdən keçirilir. Bir çox ölkə, o cümlədən Almaniya məhdud sayda miqrant qəbul etməklə problemin həllinə yaxınlaşdıqlarını iddia edir. BMT-nin miqrant qəbulu ilə bağlı kvotanın hər bir Aİ ölkəsi üçün 200 min nəfərə qədər artırılmasını təklif etməsi bu ölkələrin hökumətləri tərəfindən narazılıqla qarşılanıb. 300-5000 arası miqrantı qəbul etməkdə tərəddüd edən Avropa ölkələri bu məsələdə ciddi addım atmağa tələsmirlər. Amma Aİ üzvü olmayan Türkiyə miqrant və qaçqın qəbul etmək sahəsində bütün Avropa üçün ciddi nümunə təşkil edir. Bu gün bu ölkədəki miqrantların sayı 3 milyondan çoxdur. Türkiyə bu insanların həyatlarını ləyaqətlə davam etdirmələrinə dəstək üçün hər il milyardlarla lirə sərf etməkdədir. Əgər Türkiyə hökuməti vaxtında təcili tədbirlər görməsəydi, bu insanların həyatı böyük sual altında qalacaqdı və ya onlar Avropa sərhədlərində üzləşdikləri zorakılıqların qurbanı olacaqdılar.

Dünyada terrorizmdən sonra ən çox müzakirə olunan məsələlərdən biri artıq miqrasiya problemidir. Aİ ölkələri hazırda bu miqrantları deportasiyalara məruz qoymaq və ya şəxsiyyətlərini alçaltmaqdansa, onların intellektual, sosial və fiziki potensialından düzgün yararlanmaq üçün proqramlar, layihələr hazırlasarlar, daha yaxşı olar. Avropanın uzun illərdən bəri yenidən qurmağa çalışdığı miqrasiya siyasəti o zaman həm bu ölkələrin özləri, həm də miqrantlar üçün daha çox fayda verərdi.

*Paşa ƏMİRCANOV*
*XQ*

# Hüseyn Cavidin xatirəsinə ehtiram

## *Şairin doğum günündə "İblis və..." tamaşası nümayiş olunub*







**Oktyabrın 24-də Akademik Milli Dram Teatrında böyük Azərbaycan şairi və mütəfəkkiri Hüseyn Cavidin doğum gününə həsr olunan anım mərasimi keçirilib, "İblis və..." tamaşası təqdim edilib. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov gecədə iştirak ediblər.**

Əvvəlcə Əməkdar incəsənət xadimi, Dövlət mükafatı laureatı Mehriban Ələkbərzadənin Hüseyn Cavidə ithaf etdiyi qısa film nümayiş olunub.

Hüseyn Cavidin "İblis" faciəsinin motivləri əsasında hazırlanan tamaşanın janrı fəlsəfi dekonstruktiv-metadramdır.

Yeni səhnə əsərinin quruluşçu rejissoru Dövlət mükafatı laureatı, Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadə, quruluşçu rəssamı Əməkdar mədəniyyət işçisi İlham Əsgərov, geyim üzrə rəssamı Vüsal Rəhim, işıq üzrə rəssamı Rafael Həsənov, bəstəkarı Azər Hacıəsgərli, məsləhətçisi Əməkdar mədəniyyət işçisi Azər Turan, rejissor assistentləri Nərmin Həsənova və Ceyran Başarandır.

Tamaşada Əməkdar artistlər Ayşad Məmmədov və Anar Heybətov (İblis), Elnar Qarayev (İblisin varisi-1), Elşən Cəbrayılov (İblisin varisi-2), aktyorlar Murad İsmayıl (Arif), Elsevər Rəhimov (Vasif), Əməkdar artist Vəfa Rzayeva (Rəna), aktyor Elçin Əfəndi (İbn Yəmin), Əməkdar artist Elşən Rüstəmov (Elxan), Xalq artisti Kazım Abdullayev (İxtiyar şeyx), aktyorlar Lalə Süleymanova (Xavər), Vüsal Mustafayev (Vasifin dostu), Elçin Nurəliyev (Çavuş, Haydut) və Tural İbrahimov (Kanuni, Haydut) iştirak edirlər.

Qərbdə də, Şərqdə də çox araşdırılan, diqqət çəkən iblis mövzusu Hüseyn Cavid yaradıcılığında Tanrı konsepsiyası ilə özünəməxsus çalarda həll edilib. Hüseyn Cavid insan, iblis, Tanrı konsepsiyasını özünəməxsus formada ortaya qoyur. Onun insan, iblis, Tanrı haqqındakı fikirləri yaradıcılığının böyük, daxili qüvvəsi və mahiyyətidir. Bu tamaşa Hüseyn Cavidin "İblis" əsəri əsasında dekonstruksiya da - "İblis" əsərinin motivləri əsasında "İblis və…" adlana bilər.

Dördpərdəli faciənin (dekonstruksiyada birhissəli metadram) təyinat xətti dəyişərək yalnız Tanrı-iblis və insan xətti üzərində köklənir. Təyinat iblisə, ondan doğan faktor isə insana yönəlir. Qısa desək, "İblis" pyesində ruhunu şeytana satan insanların aqibəti təsvir olunur. Bu isə iblisin qələbəsidir.

İlk baxışda dünyanın ədalətsizliyində boğulan, bir filosof baxışına sahib Arifin qaranlıq dünyasındakı şübhə toxumu, onun içindəki gizli şəhvət və sərvət istəyi, Şərq insanının narahat ruhu onu istədiyi və yaşadığı həyatın dilemmasında qoyur.

İçində boşluqlar olan insan iblisi cəlb edir və iblis yer üzündə sürgünə səbəb olan insanla mübarizədə Tanrıya haqlı olduğunu isbatlayır.

Qeyd edək ki, tamaşanın premyerası 3-4 sentyabr tarixlərində Sankt-Peterburqda – Aleksandrinski Teatrında keçirilib. Bu, Azərbaycan teatr tarixində Aleksandrinski Teatrında premyerası keçirilən ilk tamaşadır.

**XQ**

# İnsan haqları ABŞ-nin daxili işlərə müdaxilə vasitəsinə çevrilib

**ABŞ-nin daxili işlərə, istintaq prosesinə və məhkəmə sisteminin müstəqilliyinə müdaxilə vasitəsi kimi insan haqları məsələlərini istifadə etmək və təhrif etmək hüququ yoxdur.**

Bu barədə XİN-in Mətbuat Xidməti İdarəsinin rəisi Ayxan Hacızadə "X" platformasındakı paylaşımında qeyd edib.

O, Azərbaycanda fundamental hüquq və azadlıqların tam təmin olunduğunu bildirib. "Eyni zamanda, ABŞ-də olduğu kimi, cinayət əməllərinə görə cəza çəkən vətəndaşlar heç bir ayrı-seçkiliyə məruz qalmadan cəzaçəkmə rejimlərinin müvafiq qanunlarının tələblərinə tabedirlər", - Ayxan Hacızadə qeyd edib.

O əlavə edib ki, bəzi xarici hökumətlərin və siyasətçilərin milli qanunvericilik əsasında məhkəmə tərəfindən cinayət ittihamı ilə məhkum edilmiş şəxslərin azadlığa buraxılması tələbləri onların qanunun aliliyinə sadiqliyini şübhə altına salır.

**XQ**

# Media və biznes mühiti

## İqtisadi islahatlarla bağlı məlumatlandırmada jurnalistlərin rolu

**Medianın İnkişafı Agentliyi və Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiya Katibliyinin birgə təşkilatçılığı ilə aparıcı media qurumlarının məsul şəxsləri və nümayəndələrinin iştirakı ilə Bakı KOB Evində "Biznes mühiti üzrə islahatların və elektron dövlət xidmətləri barədə məlumatların kommunikasiyası" mövzusunda görüş keçirilir.**



Tədbirdə çıxış edən Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov ölkəmizdə iqtisadi inkişafa xidmət edən islahatların biznes nümayəndələrinə və digər maraqlı tərəflərə düzgün və vaxtında çatdırılmasında media təmsilçilərinin mühüm rolu olduğunu vurğulayıb. Bildirib ki, bu sahədə koordinasiyalı fəaliyyətin təşkili, yeni islahatlar və elektron dövlət xidmətləri barədə məlumatların çevik kommunikasiyası üçün mövcud resurslardan səmərəli istifadə mühüm əhəmiyyət kəsb edir.

Görüşdə Prezidentin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin İqtisadi islahatların monitorinqi, koordinasiyası və qiymətləndirilməsi sektorunun müdiri, komissiyanın Katibliyinin rəhbəri Vüsal Şıxəliyev çıxış edərək deyib ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə yaradılan Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın əsas məqsədi rəqabət prinsiplərinə əsaslanacaq biznes mühitinin yaranmasına dəstək vermək, beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyini daha da yaxşılaşdırmaq üçün qanunvericiliyin və inzibatçılığın təkmilləşdirilməsi və bu istiqamətdə digər zəruri tədbirlərin görülməsinə nail olmaqdır.

V.Şıxəliyev bildirib ki, biznesin müxtəlif sahələri üzrə müvafiq dövlət qurumlarının rəhbərliyi altında mühüm normativ hüquqi akt layihələri hazırlanaraq aidiyyəti üzrə təqdim edilib. Həmçinin sahibkarlıq subyektlərinin inzibatçılıq yükünün azaldılması və fəaliyyətlərinin səmərəliliyinin artırılmasına xidmət edən yeni elektron xidmətlər və platformalar istifadəyə verilib, elektron sistemlərin tətbiq dairəsi genişləndirilib.

**XQ**

# İrəvanda delimitasiya-demarkasiya "davası"



**Ermənistan parlamentinin oktyabrın 23-də "Ermənistan və Azərbaycan arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası və Ermənistanla Azərbaycan arasında dövlət sərhədinin demarkasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın fəaliyyətinə dair Əsasnamənin təsdiq edilməsi haqqında" qanun layihəsini qəbul etməsi ölkədəki radikal-revanşist kəsimin yenidən baş qaldırmasına səbəb olub. Onlar bir ağızdan bu qanunun əleyhinə çıxırlar.**

Halbuki, müxalifətçi "Hayastan" və "Şərəfim var" fraksiyaları məsuliyyətdən yaxalarını kənara çəkərək səsverməni boykot ediblər. Onlar sənədin nə əleyhinə səs veriblər, nə də bitərəf qalıblar. Sadəcə, səsvermədə iştirak etməyiblər. Hər iki fraksiya sənədin gələcəkdə dövlət əleyhinə güzəştlərə haqq qazandırmaq məqsədi daşıdığını bildirərək, müzakirə və səsvermədə iştirak etməyiblər. Bununla belə mediaya verdikləri açıqlamalarda öz aləmlərində uzağagedən nəticələr çıxarmağa çalışırlar.

Bu düşərgəyə yaxınlığı ilə seçilən politoloq Stepan Danielyan "Sputnik Ermənistan"a müsahibəsində bildirib ki, Azərbaycanla Ermənistan arasında sərhədin demarkasiyası üzrə dövlət komissiyalarının fəaliyyətinə dair əsasnamədə gələcək ərazi güzəştlərindən (?) bəhs edilir və bu güzəştlər dəhliz formasında Sünikdə (Zəngəzurda–S.H.) də ola bilər.

Onun sözlərinə görə, hazırkı hökumətin nümayəndələri daim Praqada Alma-Ata Bəyannaməsinin prinsiplərindən bəhs edən sənəd imzaladıqlarını fəxrlə bəyan edirlər. Lakin Danielyanın fikrincə, Alma-Ata prinsiplərində aydınlıq yoxdur, söhbət ümumi sərhədlərdən gedir. O, digər bir vəziyyətə diqqət çəkib: Ermənistan parlamentinin təsdiq etdiyi əsasnaməyə əsasən, Alma-Ata Bəyannaməsi digər delimitasiya və demarkasiya prinsipləri ilə əvəz edilə bilər.

Danielyan iddia edib ki, bunu Azərbaycan israr edib və Ermənistan da razılaşıb: "Bu sənəd indiki hakimiyyətin gələcək ittihamına çevriləcək, çünki onlar Alma-Ata prinsipləri ilə delimitasiya və demarkasiya aparacaqları barədə Azərbaycanla razılaşıblar. Gələcəkdə bu prinsiplər dəyişdirilə bilər və Alma-Ata Bəyannaməsi çərçivəsindən kənara çıxan bəzi prinsiplər varsa, o zaman dövlətə xəyanət məsələsi gündəmə gələ bilər. Onlar Ermənistanın ərazi bütövlüyünü sual altına qoyublar".

Politoloq onu da bildirib ki, İran Zəngəzur dəhlizinin açılmasının əleyhinədir, ona görə də bu prosesdə irəliləyiş qeydə alınmır. Rusiyanın da burada xüsusi rəyi var. Çünki Moskva Zəngəzurun tamamilə Azərbaycan və Türkiyənin təsiri altında olmasını istəmir: "Təsadüfi deyil ki, ABŞ Dövlət katibinin müavini regiona gəlir və Ukraynadakı müharibə fonunda İrəvanla Bakı arasında sülh müqaviləsinin bağlanması və kommunikasiyaların açılması üçün əlverişli vəziyyət yarandığını bəyan edir. ABŞ-nin məqsədi Rusiyanı regiondan sıxışdırmaqdır".

Danielyan daha sonra arzusunu dilə gətirib. O, əmin olduğunu bildirib ki, Ukraynadakı müharibə başa çatdıqdan sonra Rusiya Cənubi Qafqaza qayıdacaq və bunun nəticəsində Türkiyənin regionda təsiri zəifləyəcək.

Vəkil və beynəlxalq hüquq üzrə mütəxəssis Aram Orbelyan isə deyib ki, komissiyaların fəaliyyəti haqqında əsasnamə texniki xarakter daşıdığından ratifikasiya olunmur. O, iddia edib ki, komissiya məşvərətçi orqan statusuna malikdir və onun əraziləri dəyişdirmək və ya sərhədləri çəkmək səlahiyyəti yoxdur. Buna baxmayaraq, məşvərətçi orqana nə Ermənistanın maraqlarından, nə də beynəlxalq hüquqdan irəli gəlməyən son dərəcə geniş səlahiyyətlər verilib.

Orbelyanın sözlərinə görə, saziş sadəcə olaraq dövlətdaxili proseslərdən keçməli idi, lakin bunun üçün parlament tərəfindən ratifikasiya tələb olunmur: sənədi istər hökumət, istərsə də Ermənistan prezidenti təsdiq edə bilərdi.

Onun fikrincə, parlament əsasnaməni ratifikasiya etməməli idi: "Əks halda o, Ermənistan ərazilərinin qanunsuz olaraq verilməsində şərik olub ki, bu da öz növbəsində dövlətə xəyanət deməkdir. Bu delimitasiya prosesi Ermənistan Konstitusiyasında nəzərdə tutulmayıb, ona görə də legitim ola bilməz".

Göründüyü kimi, Ermənistanda hətta ekspertlər arasında da Azərbaycanla sərhədin müəyyənləşdirilməsinə qarşı çıxanlar var. Baş nazir Nikol Paşinyan isə qanunverici orqandakı müzakirələr zamanı demişdi: "Ermənistan öz strateji siyasəti ilə bəyan edir ki, bizim Azərbaycana və ümumiyyətlə, region dövlətlərinə qarşı heç bir təcavüzkar niyyətimiz yoxdur. Bəyan edirik ki, biz işğal olunmuş əraziləri (Ermənistan şərti sərhəddə bir neçə kvadratkilometr ərazisinin, guya, işğal olunduğunu iddia edir–S.H.) hərbi yolla geri qaytarmaq vəzifəsini qarşımıza qoymuruq, çünki Azərbaycanla imzaladığımız demarkasiya prosesi haqqında sənəd demarkasiya prosesinin hüquqi və qanuni əsaslarla keçirilməsi üçün hər cür imkan yaradır".

Əlbəttə, Paşinyanın bu açıqlaması vacib siyasi mövqe kimi qiymətləndirilə bilər, lakin bununla bərabər, konstitusiya baş nazirdən daha güclü fenomendir. Bizim üçün indiki halda Ermənistan siyasətçilərinin dedikləri deyil, ortada olan hüquqi aktlar, qanun və digər normativ sənədlər əsasdır və onlarla işləməkdən başqa alternativimiz yoxdur. Çünki ortada birgə razılaşmaların üzərindən xətt çəkilməsi kimi bir keçmiş, hətta, 44 günlük müharibə var. Qarşılıqlı etimadsızlıq elə bir səviyyədədir ki, Ermənistan konstitusiya məhkəməsinin "Azərbaycana ərazi iddiaları olan aktlar hüquqi qüvvəyə malik deyil" qərarı belə indiki halda erməni cəmiyyətinin yekdil rəyi kimi qəbul oluna bilməz. Yalnız referendumla biz gerçək mənzərinin necə olduğuna inana bilərik.

**Yaranmış durumla bağlı fikirlərini XQ ilə bölüşən "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu** bildirdi ki, əsas məsələ Ermənistan hökumətinin mövqeyi və parlamentinin qərarlarıdır. Onun sözlərinə görə, əgər Ermənistan hökuməti və parlamenti Azərbaycanla razılaşmaları təsdiq edirsə, müxalifətin nə deməsinin əhəmiyyəti yoxdur. Çünki müxalifət prosesə təsir edə bilmir: "Doğrudur, başqa sual yarana bilər ki, gələcəkdə hakimiyyət dəyişərsə, indiki müxalifət iqtidara gələrsə, Azərbaycanla razılaşmalardan imtina edə bilərmi? O zaman, bu, sülh yox, yenidən müharibəyə şərait yaratmaq olacaq ki, nəticədə bölgədə gərginlik artacaq. Hətta, hakimiyyət dəyişdikdən sonra belə yeni gələn iqtidarın əvvəlki razılaşmalardan imtina edəcəyini düşünmürəm. Çünki bu müxalifət hər zaman hökumətin əleyhinə çıxır. Onun daxilində radikal-revanşist elementlər də çoxdur. Amma Paşinyanın Azərbaycanla apardığı danışıqlara da mane ola bilmirlər".

E.Şahinoğlu qeyd etdi ki, biz prosesi müşahidə edirik. Bu səbəbdən bizim əsas tələbimiz odur ki, konstitusiyaya dəyişiklik məhz referenduma çıxarılsın: "Referendumda Ermənistanın Azərbaycana ərazi iddialarını nəzərdə tutan bəndlər çıxarılarsa və erməni cəmiyyətinin hamısı olmasa da, böyük hissəsi bunun lehinə səs verərsə, daha bunu da dəyişmək mümkün olmayacaq. Çünki referendumla təsdiq olunacaq ki, artıq Ermənistanın Azərbaycana ərazi iddiası yoxdur".

Müsahibimiz onu da bildirdi ki, radikal müxalifətin bu cür çıxışlar etməsində qeyri-adi heç nə mövcud deyil: "Həmin o revanşist müxalifət – Robert Koçaryan və Serj Sarkisyan tərəfdarları keçmişdə Azərbaycan torpaqlarının işğalına birbaşa rəhbərlik ediblər. Onlardan başqa cür münasibət gözləmək də mümkün deyil. İndi durub Paşinyanın Azərbaycanla əldə etdiyi razılaşmaları dəstəkləməyəcəklər ki?! Amma bizim üçün önəmli olan danışıqların, sülh prosesinin davam etdirilməsidir. Gələcəkdə kimlərsə Azərbaycanla razılaşmalardan imtina etmək istəyəcəksə, o zaman sülhün aradan qaldırılması müharibənin başlanması olacaq ki, Ermənistan yüz dəfə Azərbaycanla müharibə etməyə girişsə, yüzündə də ağır məğlubiyyətlə üzləşəcək".

***S.NAZİMOĞLU***
***XQ***

# Nərimanov Rayon Prokurorluğunda "Açıq qapı" günü



**Oktyabrın 25-də Nərimanov Rayon Prokurorluğunda növbəti "Açıq qapı" günü təşkil edilib.**

Rayon Prokurorluğunun yeni binasında keçirilən tədbirdə məqsəd prokurorluq əməkdaşları üçün yaradılmış iş şəraiti, istifadədə olan kriminalistik texnika, habelə prokurorluğun tarixi keçmişi ilə media və qeyri-hökumət təşkilatlarının nümayəndələrini tanış etmək olub.

Qonaqlara prokurorluq orqanlarında aşkarlıq və şəffaflığın, vətəndaş məmnunluğunun təmin olunması, habelə ictimaiyyətlə əlaqələrin möhkəmləndirilməsi istiqamətində həyata keçirilən ardıcıl tədbirlər barədə danışılıb, habelə Azərbaycan Prokurorluğunda müvafiq olaraq həyata keçirilən hüquqi-institusional islahatlarla bağlı iştirakçılara məlumat verilib.

Nərimanov rayon prokuroru Hidayət Nurəlibəyov, Baş Prokurorluğun əməkdaşı Kənan Zeynalov və digərləri qurumun fəaliyyəti barədə tədbir iştirakçılarına ətraflı danışıblar.

İştirakçılar bina, eləcə də kriminalistik texnika ilə əyani olaraq tanış olub, onlara "Elektron prokurorluq" informasiya sistemi əyani olaraq nümayiş olunub.

**XQ**

# Qvadelupanın Azadlığı naminə Xalq Birliyi Bakıdan Fransanı qınadı

**Qvadelupanın Azadlığı naminə Xalq Birliyi Bakıdan Fransanı qınayan bəyanat yayıb.**

Sənəddə Qvadelupanın Azadlığı naminə Xalq Birliyi (UPLG) oktyabrın 23-də BMT-nin Cenevrədəki qərargahında keçirilən missiyadan qayıdarkən Baş katib Jan-Jakob Bisepin Parisin Şarl de Qol hava limanında həbs edilməsi və sərhəddə saxlanılması ilə bağlı narazılıq ifadə olunub. Xatırladaq ki, sözügedən tədbirdə Fransa nəzarətində olan ərazilərdə insan hüquqlarının pozulma halları müzakirə edilib.

Bundan əvvəl Baş katib ABŞ-da BMT qərargahına səfər etməyi planlaşdırarkən Martinikadan keçdikdən sonra ABŞ ərazisinə girişinə qadağa qoyulduğuna görə səyahətini davam etdirə bilməmişdi.

UPLG insan hüquqlarına zidd olan bu təcrübələri pisləyir, özünün öz müqəddəratını təyinetmə və milli müstəqillik hüququnun tanınmasını tələb edir.

**XQ**

# Elmi ideya intellektual milli sərvət kimi



**II MƏQALƏ**

**Elə bir dövr gələcək ki, elm fantaziyanı qabaqlayacaq.**

**Jül VERN**

## Elmi ideya və "öncə Amerika" yanaşması

Elmi ideya yaratma ilə bağlı ABŞ-də artıq formalaşmış və demək olar ki, kəsintisiz bir proses məzmunu almış mənzərənin ümumi fəlsəfi obrazını müəyyən etmək olar. Birincisi, ABŞ elmi ideyanı yaradan dövlət olmaq üçün yalnız yaradıcılıq (və ya kreativlik) potensialı yüksək olan tədqiqatçılara qapı açır.

İkincisi, bu prosesi bütün dünyanın hər guşəsinə aid etməklə, onu ideya səviyyəsində bəşəriləşdirir.

Üçüncüsü, ABŞ-nin alimlərə qoyduğu şərt birmənalıdır – konkret praktiki nəticəverən nəzəri-konseptual konstrukt yaratmalısan! Bundan kənarda alim perspektivli sayılmır.

Dördüncüsü, ABŞ üçün əbədi nüfuzlu alim yoxdur – hər kəsin bir faydalılıq müddəti vardır. O bitəndən sonra, Amerikanın elmi elitası həmin şəxs haqqında yalnız nəzəri-elmi kontekstdə danışır. Ən faydalı alimin belə vəzifəsi bitəndən sonra nə özü, nə də qohumları və dostları praktiki imtiyaz görmür.

Beşincisi, ABŞ, bir qayda olaraq elmi ideyaları birbaşa milli və dövləti maraqlarına xidmətə yönəldir. Bu əsasda "amerikan müstəsnalığı" kimi özünəqapalılıq və ya özündən razılıq aurası yaradır. Yəni amerikalı alim öz vətəni və dövləti üçün çalışan yüksək dəyər daşıyıcısıdır və buna görə də alimlik ən nüfuzlu peşədir.

Nəhayət altıncısı, ABŞ daima dünyada elmi ideya yaratmaqda lider olmağa çalışır. Bunun üçün siyasi, ideoloji, təbliğati üsullarla yanaşı, cəlbediciliyi yüksəldən elmi fəaliyyət üsullarından da geniş istifadə edir. Nümunə üçün Amerikada robotların idarə edilməsini idarə edən peşəkarlar hazırlayırlar. Onlar süni intellekti idarə etmirlər, süni intellekti idarə edənlərin necə idarə olunmasını öyrənirlər. Nəyin naminə? Amerikanın liderliyi və dinamik inkişafı naminə! Onların fərdi maraqları çox arxada yerləşir, yəni "Öncə Amerika"!

## Elmi ideyanın Çin üsulu

Çini dövlətçilik məsuliyyəti baxımından, ümumiyyətlə, müasir dünyanın möcüzəsi hesab etmək olar. Bu dövlət dinamik surətdə tarixi baxımdan əsas istiqamətlərdə dünyanın ön sırasına yüksələ bildi. Bu faktı indi kimsə inkar və ya gözardı edə bilməz. Bu prosesdə elm aparıcı rol oynamışdır. Məhz elm və texnologiya əsasında Çin indiki Çindir! Bu, XX əsrin sonu XXI əsrin başlanğıcı üçün çox maraqlı, öyrəniləsi və cəlbedicilik səviyyəsi yüksək olan hadisədir.

Maraqlıdır ki, Çinin bu yüksəlişin əsas faktorlarından birini Çinin elmi ideya və yeni elm yaratmaq məsələsinə özünəməxsus üsulla yanaşması təşkil edir. Çini elmi baxımdan bizim üçün cəlbedici edən əsas məqam bundan ibarətdir. Təkrar etmək istərdim: Çin XXI əsrdə elmi ideya əsasında tam mənasında və əhatəli şəkildə yüksələn yeganə dövlətdir. Hindistan elmi də yüksəlir, Yaponiya bu sahədə daha çox təcrübəsi olan dövlətdir, Cənubi Koreya yeni texnologiyalar və nəzəri tədqiqatlar aspektlərində ciddi nailiyyətlər əldə etmiş ölkədir, Sinqapur texnologiyalar möcüzəsidir. Rusiya da nəsə etməyə çalışır, Türkiyə isə konkret irəliləyişlər əldə etmişdir. Lakin Çin bütün bunlardan fərqli olaraq elmi ideyanı nəzəriyyəyə və onu da praktiki tətbiqi və innovativ konstrukta sistemli, konseptual çevirə bilən yeganə dövlətdir. Bu tezisin təməlində Çinin əldə etdiyi nailiyyətlər dayanır – hərbi, kosmik, kənd təsərrüfatı, elmi kəşflər, innovasiyalar, yeni texnologiyalar, şəhər mədəniyyətinin yüksəlişi, tibb, postsənaye kateqoriyasına aid olan infrastrukturun sürətli inkişaf etdirilməsi və başqa əhəmiyyətli sahələr üzrə Çin nümunəsindən danışmaq olar. Danışmaqla yanaşı, öyrənib tətbiq etmək də olar.

Lakin burada Çin nümunəsinin hər kəs tərəfindən reallaşa bilməyən bir incəliyi vardır. Çin keçən əsrin ikinci yarısından (daha dəqiqi XX əsrin 80-ci illərindən) Qərbin sosial, siyasi, maliyyə siyasəti, beynəlxalq əməkdaşlıq modelləri, beynəlxalq maliyyə institutları, elmi və texnoloji cəzbetmə sahəsindən uzaqlaşmaq xətti seçdi. Pekin Avropada geniş tətbiq olunan "tetçerizm" monetar siyasətinin əksinə olaraq pul kütləsini daxili bazarda idarə etmək üçün bankların böhran halında faiz artımı siyasətini qəbul etmədi. Əksinə, faizləri aşağı saldı. Müəyyən kritik müddətdən sonra bu siyasət öz müsbət bəhrəsini verdi.

Türkiyə həmin kursu XXI əsrdə tətbiq etməyə çalışdı, lakin uğursuz oldu. Niyə? Görünür, burada Türkiyənin Avropa iqtisadiyyatına bağlılıq səviyyəsi ilə Çinin bağlılıq səviyyəsi arasında ciddi fərqlər vardır – Çin uzaqlaşa bildi, Türkiyəni isə "maliyyə bataqlığına" salmağı bacardılar.

Elmi ideya aspektində də, çətin ki, postsovet məkanında kimsə Çinin ilk mərhələdə tətbiq etdiyi üsuldan yararlana bilsin. Çünki Çin kəşfiyyatı Amerika və Avropanın aparıcı elmi təşkilatlarını ideya baxımından, sözün həqiqi mənasında, "sökdü"! Ən yeni ideyalar sürətlə Çinə çatdırılır və o da sürətli tətbiq ilə Qərbin irəli getməsini əngəlləyirdi. Dünya daha ucuz, lakin eyni texnologiyaya sahib Çin məhsulları almağa üstünlük verirdi. Çin keyfiyyətdə Qərbdən geri qalsa da, qiymətinə görə daha çox maraq doğurmağa başladı. Bununla Çin tədricən elmi ideyaları çoxaldır və özü bu əsasda avtonom elmi ideya inkişafı bazasını yaratmağa çalışırdı.

XXI əsrin ikinci onilliyində bu proses o dərəcədə genişlənib və dərinləşdi ki, Qərb Çinin elmi ideyaları "oğurlaması"nı ciddi təhlükə kimi qiymətləndirməyə başladı. Lakin artıq gec idi. İki aspektdən belə idi.

Birincisi, Çin həm kəşfiyyat şəbəkəsini qloballaşdırmışdı, həm də onun yüksək texnologiyalar yaradan dövlət imici formalaşmışdı. Çindən mal alanı Pekinin hansı ideyanı, hansı Qərb ölkəsindən qanunsuz oğurladığı deyil, yeni texnologiyalılığı maraqlandırır. Buna görə də avropalı liderlərin Çinə dəfələrlə səfər etmələri Pekini dayandıra bilmədi.

İkincisi, Çin artıq həmin müddətə özünün ideya yarada bilən dövlətə çevrilməsi üçün lazım olan ideya, fəaliyyətin təşkili və praktiki tətbiq mexanizmini hazırlamışdı. Onu vurğulayaq ki, 2017-ci ildən başlayaraq Çin elmi təşkilatları, (o cümlədən Çin Elmlər Akademiyası) patent almaq üzrə dünya reytinqində aparıcı yer tutmağa başladı. 2022-2024-cü illərdə isə reytinqdə zirvəyə yüksəldi. Öz də bu, birbaşa elmi ideyaların yeniliyinə verilən və tətbiq edilən layihələrə görə, müəyyən edilən qiymətləndirmə idi.

Sual olunur: Bu keçilmiş təcrübəni başqa dövlət təkrar edə bilərmi? Bu suala cavab vermək çox çətindir. Bundan başqa, reallıq göstərir ki, Çin nümunəsindən yararlananda hər bir ölkə özünəməxsusluğunu mütləq diqqətə almalıdır.

## Bəs alternativlər?

Şübhə etmirik ki, mövcuddur. Çünki hər ölkənin özünəməxsus elmi təcrübəsi və keçdiyi yol vardır. Bütün yollardan isə düzgün istifadə elmi ideya yaratmağa imkan verən məcraya ayrıca yol açır. Burada əsas seçim anı konseptual olaraq qarşıya konkret və dəqiq vəzifə qoymaq, konkret hədəf müəyyən etməkdən ibarətdir. Bunun üçün, təbii ki, elmi fəaliyyətin təşkili üçün mövcud institutlaşmanın yenilənməsi zəruridir. Burada başqa variant mümkün deyildir. Çünki əgər indiki struktur-funksional gerçəklik imkan versəydi, ölkə ideya yaradardı. O yoxdursa, deməli, elmi fəaliyyətin təşkili yeniləşməlidir.

Burada sırf idraki aspektlə sosial-mədəni və praktiki-tətbiqi aspektlərin qarşılıqlı əlaqəsinin yeniləşməsi mütləq şərtdir. Digər tərəfdən, istənilən ölkədə ideya yaradan məkana çevrilmək üçün təhsillə elmin inteqrasiyası yeniləşməlidir. Bunun üçün təhsil sistemində struktur-funksional, konseptual və praktiki-tətbiqi aspekti ciddi nəzərə alan pedaqoji yeniləşmələr həyata keçməlidir. Bir nümunə göstərək.

Hazırda Qərbdə və Uzaq Şərqin bir sıra ölkələrində, hətta, Latın Amerikasında kiçik yaşlı uşaqlarda və tələbələrdə inteqrativ, fənlərarası mahiyyətli təfəkkürün formalaşması üçün xüsusi proqramlar hazırlayır, layihələr həyata keçirirlər. Burada məqsəd həm elmi, həm də tədrisi aspektlərində yeni koqnitiv səviyyəyə nail olmaqdan ibarətdir. Hesab edirlər ki, uşaqlar və tələbələr elmlərarası yanaşma müstəvisində işləyə biləcək təfəkkürə malik olmalıdırlar ki, müasir dövrün elmi çağırışlarına adekvat yaradıcı reaksiya verə bilsinlər. Həmin çağırışlar sırasında süni intellektin layihəsini hazırlayan və onları praktiki reallaşdıra bilən kadrlar xüsusi yer tutur. Buna görədir ki, indi xaricdə kiçik yaşlarından uşaqlara yeni tədris proqramları vasitəsilə fənlərarası düşüncə formalaşdırmağa çalışırlar və tələbələrdə həmin əsasda yaradıcı təfəkkür formalaşdırmağa xidmət edən proqramlar həyata keçirirlər.

Eyni təcrübəni Azərbaycanda tətbiq etmək mümkündürmü? Məncə, zəruridir. Bunun üçün isə uyğun yeniləşmə konsepsiyası hazırlanmalı, müxtəlif təşkilatlarla geniş müzakirə olunmalı və həyata keçirilməsinə başlanmalıdır.

## Azərbaycan nümunəsi

Azərbaycan qədimdən yaradıcı insanların kifayət qədər olduğu sosial-coğrafi və mədəniyyət məkanıdır. Azərbaycanın dünyaya verdiyi dahilər bunun sübutudur. Ulu öndər Heydər Əliyev də daim vurğulayırdı ki, Azərbaycan elmə yüksək qiymət verən cəmiyyətdir. İndiki mərhələdə Azərbaycan elmi və təhsili üçün nəzəri kəşflərdən praktiki tətbiqə keçidi maksimum dərəcədə sürətləndirmək əsas vəzifələrdən biridir. AMEA-nın yeniləşməsi kursunda bu məsələ dövlətçilik məsuliyyəti kontekstində elmi əsaslandırılmış formada yer almışdır. Elm və Təhsil Nazirliyinin də özünün yeniləşmə kursunu hazırlaması yerinə düşərdi. Şübhə etmirəm ki, nazirlikdə bunun öhdəsindən gələ biləcək kadr potensialı kifayət qədərdir. Təşkilatın idarə olunmasında yeniliyə istiqamətlənmə xətti də mövcuddur.

Bundan başqa, aydındır ki, maliyyə mexanizmləri də yeniləşməlidir. Maliyyə təminatı olmayanda ən gözəl elmi və təhsil ideyası belə reallaşmamış qalır. Prezident İlham Əliyevin ardcıl, inamlı və tam elmi əsaslandırılmış surətdə ölkədə həyata keçirdiyi strateji inkişaf kursu bütün bunlara imkanlar yaradır.

Əlbəttə, Azərbaycan ideya yaradan ölkəyə çevrilə bilər və bu, baş verməlidir. İndiki mərhələdə ölkənin inkişaf strategiyasının ana xətti bunu tələb edir. Azərbaycanın 2030-cu il strateji hədəfi sənəddə dəqiq ifadə olunmuşdur. Konkret olaraq, ölkənin 2030-cu ilə qədər sosial-iqtisadi inkişafının Milli Prioritetləri sonucda qüdrətli dövlət və yüksək milli rifah cəmiyyəti yaratmağa imkan verməlidir. Həm dövlətin qüdrəti, həm də cəmiyyətin yüksək rifahı (fəlsəfi kontekstdə yüksək fəzilətli toplum) yalnız elmi baza üzərində inkişaf edən dövlətdə ola bilər. Söhbət elə bir inkişafdan gedir ki, elm özü bu Vətəndə yeni ideya yarada bilir. Yəni elmi ideya intellektual milli sərvətə çevrilir. Başqa yerdən alınan ideyalar üzərində davamlı, dayanıqlı və qalıcı inkişafı təsəvvür etmək çox çətindir.

Burada vurğulamaq gərəkdir ki, elmi ideyanın intellektual milli sərvətə çevrilməsi strateji xarakterli digər məqamlarla sıx bağlıdır. Yəni söhbət əgər elmi ideyanı Azərbaycanda yaratmaq vəzifəsindən gedirsə, faktiki olaraq geniş anlamda dövlətçilik qüdrətinin yüksəlməsi və fəzilətliliyin (mənəvi, əxlaqi, mədəni və intellektual xeyirxahlıq, rifah və nəciblik) inkişafı kontekstində "elmiləşmiş toplum" yaratmaqdan danışmış oluruq. Ancaq elmi ideya dövlətə, cəmiyyətə, onun insanlarına xidmət edirsə, dövlət qüdrətli və cəmiyyət fəzilətlidir.

Məsələyə məhz bu cür baxış, elmi ideyanın intellektual milli sərvətə çevrilməsinin xüsusi fəlsəfi dərkini aktuallaşdırır. O cümlədən, ümumiyyətlə, elmi ideya yaradan ölkə olmaq məqsədinin strateji aspektini təhlil etməyi ön plana çıxarır. Bu məqamlar üzərində ayrıca dayanmaq gərəkdir.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

**Zəfər marafonunun 30-cu günü**

**2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu sonradan "Dəmir yumruq" adlandırılan əks-hücum əməliyyatına başladı. 44 gün davam edən Vətən müharibəsi, təxminən, 30 illik işğala son qoyulması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan möhtəşəm Zəfər tariximizə qızıl hərflərlə yazıldı.**

# Vətən müharibəsinin xronikası: 26 oktyabr




• Zəngilan rayonunun Birinci Alıbəyli, İkinci Alıbəyli, Rəbənd, Yenikənd, Cəbrayıl rayonunun Qovşudlu, Sofulu, Dağ Maşanlı, Kürdlər, Hovuslu, Çələbilər, Qubadlı rayonunun Padar, Əfəndilər, Yusifbəyli, Çaytumas, Xanlıq, Sarıyataq, Mollabürhan kəndlərinin və Qubadlı şəhərinin işğaldan azad edilməsi ilə bağlı Prezident İlham Əliyev xalqa müraciət edib.

Dövlətimizin başçısı müraciətində deyib: "Bir aya yaxındır ki, ikinci Qarabağ müharibəsi davam edir. Bu müharibə xalqımız üçün Vətən müharibəsidir. Biz Vətən torpaqlarını işğalçılardan azad edirik. Bu müddət ərzində Şanlı Azərbaycan Ordusu bir çox yaşayış məntəqələrini düşməndən azad edibdir. Biz döyüş meydanında tarixi ədaləti bərpa edirik. Çünki Dağlıq Qarabağ əzəli, tarixi Azərbaycan torpağıdır. Əsrlərboyu Azərbaycan xalqı bu torpaqlarda yaşayıb, yaradıb, qurub. Biz Qarabağ tarixini yaxşı bilirik və bu tarixi dünya ictimaiyyətinə çatdırmaq üçün son illər ərzində böyük işlər görülübdür".

Ali Baş Komandan müraciətində, həmçinin qeyd edib ki, Prezident kimi 17 il ərzində hər zaman Azərbaycan xalqına həqiqətləri deyib, Müntəzəm olaraq bütün məsələlərlə bağlı xalqa hesabat verib. Bu gün də məlumat verirəm, bəlkə də tam məlumat deyil. Çünki müəyyən diplomatik qaydalar var. Amma nəyi demək mümkündürsə həm Azərbaycan xalqına, həm də bütün dünyaya deyirəm. Ermənistanı xilas etmək istəyirsinizsə, deyin ki, çıxsın torpağımızdan, dərhal rədd olsun! Şuşada, Cıdır düzündə sərxoş vəziyyətdə oynayan o təlxək bəyan etsin ki, çıxıram. Yoxsa, gündə beş-altı dəfə dünya liderlərinə zəng etməklə məsələ düzəlməz. Bizim mövqeyimiz dəyişməz olaraq qalır və biz haqqı, ədaləti müdafiə edirik.

Prezident İlham Əliyev xalqa müraciətində daha sonra deyib: "İndiki mərhələdə bizim mövqeyimiz bundan ibarətdir və biz hazırıq ki, bu məsələ hərbi-siyasi yollarla həll olunsun. Amma həll olunsun. Atəşkəs deyiblər, eybi yoxdur, qoy olsun. Ermənistan bunu pozub, hər bir pozuntunu biz qeydə alırıq, hər bir. Tapşırıq vermişəm, qeydə alınır, dərhal ATƏT-in nümayəndəsinə və atəşkəsdə maraqlı olan digər ölkələrə göndərilir ki, baxsınlar, ermənilər atəşkəsi nə qədər pozublar. Bizdə bütün məlumatlar var. Hərbi-siyasi həll yalnız Azərbaycanın ərazi bütövlüyünün bərpası məsələsini reallaşdırmalıdır".

• Ali Baş Komandan, Prezident İlham Əliyev Qubadlı şəhəri və Qubadlı rayonunun bir neçə kəndinin işğalçılardan azad olunmasında fərqlənmiş hərbi birlik komandirləri Yaşar Həsənovu və Zaur Quliyevi təbrik edib. Dövlətimizin başçısı onlara Vətən uğrunda gedən döyüşlərdə yeni uğurlar arzulayıb. Tapşırıb ki, onun təbriklərini və təşəkkürlərini bütün şəxsi heyətə çatdırsınlar.

• Birinci vitse-prezident Mehriban Əliyeva Zəngilan, Cəbrayıl, Qubadlı rayonlarının bir sıra kəndlərinin və Qubadlı şəhərinin işğaldan azad edilməsi ilə əlaqədar rəsmi "Instagram" səhifəsində paylaşım edib. Paylaşımda bildirilib: "Zəngilan, Cəbrayıl, Qubadlı rayonlarının bir sıra kəndləri və Qubadlı şəhəri işğaldan azad edildi! Bu münasibətlə bütün xalqımıza səmimi təbriklərimi çatdırıram! Hər bir yeni qələbənin əldə edilməsi əsgərlərimizin qəhrəmanlığı, şücaəti, cəsarəti, igidliyi və mətanəti sayəsində mümkün olur. Onların hər birinə hədsiz dərəcədə minnətdaram! Uca Tanrı ordumuzu, xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!".

• Ermənistan-Azərbaycan dövlət sərhədinin Daşkəsən rayonu sahəsində bölmələrimizin mövqeləri üzərində uçuş keçirməyə cəhd göstərən düşmən kvadrokopteri atıcı silahlardan açılan atəşlə məhv edilib.

• Ermənistan silahlı qüvvələrinin bölmələri yeni humanitar atəşkəs rejimi qüvvəyə mindikdən bir neçə dəqiqə sonra – saat 08.05-dən etibarən onu kobudcasına pozaraq Tərtər, Ağdam, Ağcabədi, Füzuli, Qubadlı və Laçın istiqamətlərində yerləşən bölmələrimizin mövqelərini və yaşayış məntəqələrimizi, o cümlədən Ermənistanın Berd, Çəmbərək və Vardenis rayonları ərazisindən Tovuz, Gədəbəy və Daşkəsən rayonlarını müxtəlif növ atıcı silahlardan, minaatanlardan və toplardan atəşə tutub. Saat 18:15-də düşmən "Smerç" yaylım atəşli reaktiv sistemindən Tərtər şəhərinə atəş açıb. Ümumilikdə gün ərzində Tərtər də daxil olmaqla, yaşayış məntəqələrimizə 200-dən çox mərmi atılıb. Canlı qüvvə ehtiyatları tükənməkdə olan düşmən döyüşlərə daha çox könüllüləri, muzdlu və əcnəbi terrorçu döyüşçüləri, o cümlədən uşaqları cəlb etməyə çalışır. Nizami ordumuz düşmənin istənilən hücum və təxribatlarının qarşısını almaq üçün döyüşə tam hazır vəziyyətdədir.



• Müdafiə Nazirliyi Qubadlı rayonunun işğaldan azad olunan Padar, Xanlıq kəndlərinin və Qubadlı şəhərinin videogörüntülərini paylaşıb.

• Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi sentyabrın 27-dən oktyabrın 26-sı saat 12:00-dək ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində 65 mülki şəxs həlak olub, 297 nəfər xəsarət alıb, 2243 ev, 90 çoxmənzilli yaşayış binası və 402 mülki obyekt yararsız vəziyyətə düşüb. Bu barədə Baş Prokurorluq məlumat yayıb.

• Kiçik çavuş Rahib Həşimov döyüş tapşırığını layiqincə yerinə yetirərək düşmənin bir neçə artilleriya qurğusunu məhv edib.

***XQ***

# Yeni sənaye zonaları genişlənir

## Son 10 ildə bu sahəyə 7,8 milyard vəsait yatırılıb

**İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyindəki sənaye parklarında tətbiq olunan idxal ƏDV-si və gömrük güzəştləri nəticəsində 489 milyon manat, cari ilin 9 ayında isə 28 milyon manat vəsaitə qənaət edilib.**

Qurumun yaydığı məlumatda sənayeləşmə siyasətinin inkişafına mühüm töhfə verən sənaye zonalarında sahibkarlıq fəaliyyətinin inkişafı üçün əlverişli investisiya mühiti yaradılıb. Sənaye parklarının rezidentləri qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak, torpaq, mənfəət vergilərindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və gömrük rüsumlarından azad olunublar.




Qeyd edək ki, hazırda ölkəmizdə sənaye parklarının sayı 8 (Sumqayıt Kimya, Qaradağ, Pirallahı, Mingəçevir, Balaxanı, Ağdam, Cəbrayıl rayonunda yerləşən "Araz Vadisi İqtisadi Zonası" və Hacıqabul Sənaye Parkı) və 4 sənaye məhəlləsi (Masallı, Neftçala, Sabirabad və Şərur) fəaliyyət göstərir.

2013-cü ildən indiyədək sənaye zonaları üzrə ümumi investisiya həcmi 7,79 milyard manat olan 140-dan çox sahibkarlıq subyektinə rezident statusu verilib. Sahibkarlar tərəfindən sənaye zonalarına 6,7 milyard manatdan çox investisiya yatırılıb və 10 min 500-dən çox daimi iş yeri yaradılıb. Mövcud layihələr üzrə növbəti mərhələdə sənaye zonalarına əlavə 1 milyard manat investisiyanın yatırılması və 6 min 500-dən çox yeni iş yerinin yaradılması nəzərdə tutulub.

Sənaye parklarının qarşısına innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye istehsalının inkişaf etdirilməsi, xidmətlərin göstərilməsi üçün münbit şəraitin yaradılması və bu sahədə sahibkarlığın dəstəklənməsi mühüm vəzifə kimi qoyulub. Bütün bunlarla yanaşı, iqtisadiyyatın, o cümlədən qeyri-neft sektorunun davamlı inkişafının gerçəkləşdirilməsi, ölkənin yerli və xarici investisiyalar üçün əlverişliliyinin yüksəldilməsi, əmək qabiliyyətli əhalinin istehsal sahəsində məşğulluğunun artırılması kimi məsələlərə xüsusi önəm verilib.

Qanunvericiliyə uyğun olaraq, sənaye parklarında indiyədək bir sıra stimullaşdırıcı tədbirlər tətbiq olunub. Məsələn, Vergi Məcəlləsinə və "Gömrük tarifi haqqında" Qanuna uyğun olaraq, sənaye parklarının rezidentləri qeydiyyata alındıqları tarixdən 10 il müddətinə əmlak, torpaq, gəlir və ya mənfəət vergilərindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və 10 il müddətinə gömrük rüsumlarından azad olunurlar.

# Neft-qaz şirkətlərinin gömrük orqanları ilə əməkdaşlığı




**Gömrük Komitəsində Dövlət Neft Şirkəti və BP-nin podratçı qurumlarının nümayəndələri arasında keçirilən görüşdə respublikamızda fəaliyyət göstərən neft-qaz təşkilatlarının gömrük orqanları ilə əlaqələrinin genişləndirilməsi müzakirə edilib. Hasilatın pay bölgüsü haqqında sazişlərin icrası ilə bağlı gömrük ərazisinə gətirilən və buradan daşınan malların rəsmiləşdirilməsinin sürətli şəkildə həyata keçirilməsi üçün bu sahədə ixtisaslaşan biznes subyektləri ilə əlaqələrin gücləndirilməsi zəruriliyi vurğulanıb.**

Gömrük Komitəsinin sədri Şahin Bağırov bildirib ki, gömrük sistemində məmnunluğun və şəffaflığın təmin edilməsi, biznes yönümlü layihələrin rəqəmsallaşması istiqamətində ciddi addımlar atılır və biznes nümayəndələri ilə bu cür mütəmadi görüşlərin keçirilməsi zamanı səsləndirilən təkliflər inzibatçılıqda aparılan təkmilləşdirilmələrin səmərəliliyinin artırılmasına əhəmiyyətli təsir göstərir.

Qeyd olunub ki, gömrük orqanlarının əsas hədəflərindən biri də gömrük–biznes münasibətlərinin tərəfdaşlıq müstəvisində qurulmasıdır ki, bu da gömrük əməliyyatlarının asan və sürətli şəkildə reallaşdırılmasını şərtləndirir.

Görüşdə BP şirkətinin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz bu kimi tədbirlərin neftqaz hasilatı sahəsində fəaliyyət göstərən qurumlarla gömrük orqanları arasında əlaqələrin daha da genişləndirilməsi baxımından mühüm önəm daşıdığını vurğulayıb.

# Qaz hasilatı bu il 5 faiz artıb

**Dövlət Statistika Komitəsindən verilən məlumata görə, bu ilin 9 ayında ölkəmizin qaz yataqlarından 25 milyard 976 milyon kubmetr (illik müqayisədə 5,61faiz çox) təbii qaz hasil edilib.**

Hesabat hesabat dövründə respublikada istehsal edilən təbii qazın 25 milyard 507 milyon kubmetri (illik müqayisədə 5,52 faiz çox) əmtəəlik məhsulun payına düşüb.

Xatırladaq ki, 2023-cü ildə Azərbaycanın qaz yataqlarından 33 milyard 411 milyon kubmetr təbii qaz hasil edilib ki, bu da illik müqayisədə 6,7 faiz çoxdur. Hesabat dövründə respublikada istehsal edilən təbii qazın 32 milyard 849 milyon kubmetri əmtəəlik məhsulun payına düşüb, bu isə illik müqayisədə 6,9 faiz artım deməkdir.

Hesabat hesabat dövründə ölkədə 3 milyon 950 min ton (illik müqayisədə 5,53 faiz çox) qaz kondensatı hasil edilib. Dövlət Statistika Komitəsindən verilən məlumata görə, 9 ayda Azərbaycanda istehsal edilən qaz kondensatının 3 min 945 tonu əmtəəlik məhsulun payına düşüb ki, bu da illik müqayisədə 6 faiz artım deməkdir.

Xatırladaq ki, 2023-ci ildə Azərbaycanda 5 milyon 216 min ton (illik müqayisədə 3,92 faiz çox) qaz kondensatı hasil edilib.



# "Yevlax Pilot Aqropark"ın yeni layihələri



**Dövlət satınalmalarının vahid internet portalında İqtisadiyyat Nazirliyinin Tikinti–Təchizat Birliyinin "Yevlax Pilot Aqropark"da tikinti işlərinin ikinci mərhələsi üçün planlaşdırılan layihələrin icrası məqsədilə "M-NAF" MMC ilə dəyəri 31 milyon 259 min manatlıq müqavilə bağlandığı bildirilib.**

Qeyd edək ki, "Yevlax Pilot Aqropark"ı ölkə ərazisində kiçik və orta fermerlərin cəlb olunması ilə yaradılan ilk aqroparkdır. Burada sahibkarlıq fəaliyyətinin inkişafı istiqamətində dövlət tərəfindən bir çox stimullaşdırıcı tədbirlər görülür və bu işlər davamlı şəkildə davam etdirilir. Belə ki, dövlət vəsaiti hesabına aqroparkın xarici və daxili infrastruktur sisteminin qurulması, rezidentlərə investisiya təşviqi sənədinin verilməsi və vahid pəncərə sisteminin tətbiq edilməsi nəzərdə tutulur. Pilot aqroparkda müasir aqrar-sənaye kompleksi yaradılmasının klaster fəaliyyətinin qurulması hesabına həyata keçiriləcəyi nəzərdə tutulur.

Layihə çərçivəsində 60 hektarda Yevlax və Goranboy rayonlarından, Mingəçevir şəhərindən sosial cəhətdən həssas 60 ailə özünəməşğulluq proqramına cəlb olunacaq.

# Qeyri-neft ixracı 31 faiz çoxalıb



**İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin məlumatına əsasən, bu ilin yanvar–sentyabr aylarında Azərbaycanın qeyri-neft ixracının dəyəri 2,47 milyard dollar (ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,3 faiz çox) təşkil edib.**

Cari ilin III rübündə ölkənin qeyri-neft ixracının dəyəri 2023-cü ilin eyni rübü ilə müqayisədə 31,5 faiz artaraq 869,02 milyon dollara yüksəlib. Təkcə keçən ay qeyri-neft ixracı illik müqayisədə 27,4 faiz artaraq 285,21 milyon dollara bərabər olub. Qeyd edək ki, 2023-cü ildə Azərbaycanın qeyri-neft ixracı illik müqayisədə 9,8 faiz artaraq rekord səviyyəyə –3,48 milyard dollara yüksəlib.

İxrac əməliyyatlatında diqqətçəkən bu uğurlu göstəriciləri bir sıra amillər şərtləndirib. Belə ki, son illər respublikada ixrac potensialının gücləndirilməsi istiqamətində bir sıra mühüm layihələr həyata keçirilib. Bunun nəticəsində özəl bölmə sürətli inkişaf mərhələsinə daxil olub, sahibkarlığın hüquqi bazası formalaşdırılıb, iqtisadi sərbəstlik diqqət mərkəzində saxlanılıb. Gömrük prosedurlarının sadələşdirilməsi, ticarət maneələrinin azaldılması və tranzit daşımaların optimallaşdırılması kimi mühüm tədbirlər də gerçəkləşdirilib. Eyni zamanda, yüksək keyfiyyətli məhsul istehsalı məqsədilə respublikamıza ən müasir texnika və avadanlıqlar gətirilib. Müəssisələrdə texnoloji proses günün tələbləri səviyyəsində tamamilə yenidən qurulub.

Qeyd edək ki, hazırda dövlətimizin başçısının 2022-ci il 22 iyul tarixli Sərəncamı ilə təsdiqlənən "2022–2026-cı illər üzrə sosial-iqtisadi inkişaf Strategiyası"na uyğun olaraq, ixracyönümlü yerli istehsalı artıra biləcək güzəştli gömrük prosedurlarının sadələşdirilməsi nəzərdə tutulur. Bu kontekstdə daxildə emal xüsusi gömrük prosedurunun istifadə şərtlərinin sadələşdirilməsi diqqət mərkəzində saxlanılır.

Bütün bunlar isə ölkə iqtisadiyyatı üçün yeni istiqamətlərin formalaşdığını deməyə əsas verir. Bu istiqamətlər isə idxaldan asılılığın azaldılması, qeyri-neft əmtəə və xidmət ixracı həcminin yüksəldilməsi, qeyri-neft emal sənayesinin inkişafının sürətləndirilməsi, biznesin bank kreditlərinə çıxışının genişləndirilməsi, dövlət investisiyalarının iqtisadi səmərəsinin artırılması, özəl investisiyaların dominant rolunun gerçəkləşdirilməsi, kiçik və orta sahibkarlığın iqtisadi artımın başlıca qüvvəsinə çevrilməsi, şəffaflığın yüksəldilməsi və "kölgə iqtisadiyyatı" səviyyəsinin minimuma endirilməsindən ibarətdir.

# İqtisadiyyata kredit qoyuluşu 23 faiz yüksəlib

**Mərkəzi Bankdan verilən məlumata əsasən, 2024-ci il oktyabr ayının 1-nə ölkə iqtisadiyyatına kredit qoyuluşu (bank və qeyri-bank birlikdə) 28 milyard 405 milyon manat (cari ilin əvvəli ilə müqayisədə 18,5 faiz çox) təşkil edib.**



Keçən ilin oktyabr ayının 1-i ilə müqayisədə isə iqtisadiyyata kredit qoyuluşu 23,4 faiz və ya 5 milyard 386 milyon manat artıb.

# Qiymətli kağızlar bazarı 2 dəfə böyüyüb

**Mərkəzi Bankın məlumatına görə, bu ilin yanvar–sentyabr aylarında ölkəmizin qiymətli kağızlar bazarında 38 milyard 166 milyon manatlıq (ötən ilin eyni dövrünə nisbətən 2,3 dəfə çox) əməliyyat aparılıb. Bu göstəricinin 6 milyard 8 milyon manatlıq hissəsi ilkin bazarda (0,6 faiz az), 32 milyard 158 milyon manatlıq hissəsi isə təkrar bazarda (3 dəfə çox) qeydə alınıb.**

Hesabat dövründə qiymətli kağızlar bazarında 61 min əqdin (illik müqayisədə 6,3 dəfə çox) 51127-si ilkin bazarda (27,6 dəfə çox), 9913-ü isə təkrar bazarda (26,95 faiz çox) bağlanıb.

9 ayda Azərbaycanın qiymətli kağızlar bazarında aparılan əməliyyatların 5 milyard 269 milyon manatlıq hissəsi və yaxud 13,8 faizi dövlət qiymətli kağızlarının, 2 milyard 816 milyon manatlıq hissəsi və yaxud 7,4 faizi korporativ qiymətli kağızların, 30 milyard 81milyon manatlıq hissəsi və yaxud 78,8 faizi (ötən ilin müvafiq dövrünə nisbətən 14,7 faiz az, 62,4 faiz çox və 3,5 dəfə çox) isə repo əməliyyatlarının payına düşüb.



# 112 yeni dövlət standartı qəbul edilib

**Bu ilin yanvar–sentyabr aylarında İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin tabeliyində olan Azərbaycan Standartlaşdırma İnstitutu 112 yeni dövlət standartı qəbul edib (bu, ötən ilin eyni dövrü ilə müqayisədə 2 dəfə çoxdur).**

Dövlət Xidmətinin bu barədə məlumatında bildirilib ki, yeni standartların tətbiqi məhsul və xidmətlərin keyfiyyətinin və rəqabət qabiliyyətinin yüksəldilməsinə müsbət təsir göstərib.



Qeyd edək ki, son illərdə ölkə iqtisadiyyatının müxtəlif sektorlarında standartların tətbiqinin genişlənməsi məhsul istehsalı və xidmətlərin müasir tələblərə uyğun təşkil olunmasına, iqtisadi fəaliyyətlərdə innovativ texnologiyalara üstünlük verilməsinə, insanların həyat və sağlamlığının mühafizəsinə, məhsul, eləcə də xidmətlərin keyfiyyətinin yaxşılaşdırılmasına geniş imkanlar yaradıb.

*Səhifəni hazırladı:*
*Vaqif BAYRAMOV*
*XQ*




## “Yaşıl dünya” naminə həmrəylik



# COP29 ekoloji fəlakətə qarşı qlobal mübarizə cəbhəsidir

**COP29-un müəyyən edilmiş prezidenti, Azərbaycanın ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev mediaya açıqlamasında 2015-ci ilin Paris İqlim Sazişinin 6-cı maddəsinin iki alt bəndinin razılaşdırılmasının COP29-da ən əhəmiyyətli müzakirə mövzularından biri olacağını bildirib.**

M.Babayev daha sonra Paris İqlim Sazişinin sözügedən maddəsinin qəbulunun əvvəlki COP-ların və Bakıda keçiriləcək COP29-un çoxsaylı danışıqlarının mövzusu kimi diqqət mərkəzində saxlanılacağını vurğulayıb. “Düzdür, bununla əlaqədar bəzi məsələlər razılaşdırılsa da, digərləri barədə hələlik konkret nəticəyə gəlinməyib. Əgər ölkələr 6.2, 6.4 və 6.8-in kritik alt bəndlərini özündə birləşdirən 6-cı maddə üzrə razılığa gələ bilsələr, bu, COP29-da çox vacib qərar olacaq”, – deyə ekologiya və təbii sərvətlər naziri xatırladıb. M.Babayev 6.2 və 6.4-cü alt bəndlərin ən böyük mübahisə doğuracağını da diqqətə çatdırıb.

Qeyd edək ki, 2015-ci il Paris İqlim Sazişinin 6-cı maddəsində deyilir: “Tərəflər istixana qazı emissiyalarının azaldılması üçün milli səviyyədə müəyyənləşdirilmiş töhfələrin həyata keçirilməsində könüllü əməkdaşlıqdan istifadə edirlər”. Beləliklə, 6-cı maddə faktiki olaraq istixana qazları emissiyalarının azaldılmasını stimullaşdıran 3 mexanizm (6.2, 6.4 və 6.8-ci alt bəndlər) müəyyən edir: 1) BMT ölkələri arasında emissiyaların azaldılması nəticələrinin uçotu və ticarəti (yəni, karbon kvotaları - Maddə 6.2), 2) karbon kvotalarının və kreditlərinin ticarəti üçün BMT-nin mərkəzləşdirilmiş mexanizminə uyğun olaraq iqlim layihələrinin həyata keçirilməsi (Maddə 6.4), 3) iqlim dəyişikliyinin nəticələrin yumşaldılması üçün qeyri-bazar yanaşmaları (Maddə 6.8).

COP29-un prezidentinin sözlərinə görə, indiyədək 6.2 və 6.4-cü alt bəndlərdə 6-cı maddənin tətbiqi qaydaları razılaşdırılmayıb, lakin 6.8-ci maddə üçün artıq hazır sənəd var. Bu məqamda onu da xatırladaq ki, karbon kvotaları əslində müəyyən bir ölkənin (şirkətin) texnologiya və ya digər üsullarla istehsal əməliyyatları zamanı müəyyən həcmdə (kiloqram və ya tonla) istixana qazlarının emissiyalarını necə azalda bildiyinin uçotudur.

M.Babayev, həmçinin qeyd edib ki, Bakıda keçiriləcək COP29 digər məsələlərin və təşəbbüslərin müzakirəsi üçün platformalar yaradacaq. Bu platformalarda səsləndiriləcək təşəbbüslər arasında BMT-nin Baş katibi Antoniu Quterreş tərəfindən dəstəklənən Karib hövzəsi ölkələrinin “həmrəylik vergisi”nin tətbiqi təşəbbüsü də var. Xatırladaq ki, Karib hövzəsi ölkələri gəmiçilik, aviasiya və qalıq yanacaq hasilatı kimi sektorlardan (iqlim problemlərini həll etmək üçün) “həmrəylik vergisi” tutmaq təşəbbüsü ilə çıxış ediblər.




BMT-nin Baş katibi bu yaxınlarda sosial media hesabında bu təşəbbüsü yüksək dəyərləndirib və iqlim təşəbbüslərinə daha çox özəl kapitalın cəlbini, habelə inkişaf etmiş ölkələrin də iqlim dəyişikliyinə uyğunlaşma üçün maliyyəni ikiqat artırmalarının və öhdəlikləri yerinə yetirmələrinin zəruriliyini bildirib.

COP29-da səsləndiriləcək təşəbbüslərdən söz düşmüşkən, onu da vurğulayaq ki, bir neçə ölkə dəniz nəqliyyatı ilə yük daşınmasına, hava səyahətlərinə vergi tətbiq olunması təşəbbüsü ilə çıxış edib ki, bu da əsasən “biznes klass” sərnişinlərinə və ya çarter reyslərə və s. şamil edilir. Hər kəsin yanaşması fərqlidir, bu, müzakirə mövzusudur. Bu cür təşəbbüslərin Bakıda müzakirəsi üçün müəyyən platformalara yer veriləcəyi də nəzərdə tutulur.

COP29-a hazırlıq prosesi Prezident İlham Əliyevin daimi nəzarəti altındadır. Dövlətimizin başçısı bir sıra çıxışlarında Azərbaycanın COP29 zamanı inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında körpü yaratmaq və konsensusa nail olmaq üçün səylərini əsirgəməyəcəyinivurğulayıb. Şuşa Zirvə görüşündə qəbul olunmuş “Qarabağ Bəyannaməsi”ndə qardaş türk dövlətləri tərəfindən isə COP29-da real nəticələrin əldə edilməsi istiqamətində Azərbaycanın ardıcıl səyləri dəstəklənib.

Xatırladaq ki, COP konfransları indiyədək BMT-nin himayəsi altında keçirilib. Bu beynəlxalq qurumun İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (COP29) Tərəflər Konfransının 29-cu sessiyasının da cari ilin noyabrında Azərbaycanda reallaşdırılacağı qərara alınıb. Bununla bağlı qərar ötən il dekabrın 11-də Dubayda gerçəkləşən COP28 plenar iclasında qəbul edilib.

Beləliklə, bu il bütün postsovet məkanında ilk dəfə Azərbaycan Respublikasının mötəbər qlobal tədbirə evsahibliyi edəcəyi ölkəmizin tarixi uğurlarından biri olmaqla, eyni zamanda, beynəlxalq aləmin vahid mövqedən çıxış edərək COP29-un paytaxtımızda keçirilməsinə qərar verməsi respublikamızın dünyada getdikcə güclənən mövqeyinin, artan nüfuzunun əyani göstəricisidir.

Beynəlxalq birliyin belə bir qlobal tədbirə evsahibliyini məhz Azərbaycan dövlətinə etibar etməsi ölkəmizin bu sahədə zəngin təcrübəyə malik olmasından, eyni zamanda, BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzvlüyü zamanı 155 ölkənin, Qoşulmama Hərəkatına sədrliyi zamanı isə 120 ölkənin dəstəyini qazanmasından və etimadı tam doğrultmasından, Prezident İlham Əliyevin irəli sürdüyü qlobal təşəbbüslərin beynəlxalq ictimaiyyət tərəfindən daim rəğbətlə qarşılanmasından, habelə dünya səviyyəsində dövlətimizin başçısının yürütdüyü siyasətə göstərilən güclü dəstəkdən irəli gəlir.

Azərbaycanın COP29-a evsahibliyi etməsinə etimad göstərilməsini bir sıra digər məqamlar da şərtləndirir. Əvvəla, bu, Prezident İlham Əliyev tərəfindən aparılan məqsədyönlü siyasət nəticəsində Azərbaycanın yüksək sosial–iqtisadi inkişaf və möhkəm ictimai sabitliyə nail olması ilə bağlıdır. Vətən müharibəsində qazanılan parlaq qələbədən sonra ölkəmizin dünyada daha güclü dövlət kimi tanınması da bu məsələdə önəmli rol oynayır.

Azərbaycanın COP29-a evsahibliyi etməsinə etimad göstərilməsini şərtləndirən amillərdən biri də respublikamızda müasir infrastrukturun mövcudluğu və təhlükəsizliyin ən yüksək səviyyədə təşkili ilə bağlıdır. Bütün bunlarla bərabər, ölkəmizin ətraf mühitə verdiyi önəm də beynəlxalq aləmin diqqətini çəkir. Bu, statistik göstəricilərdən də aydın gürünür. Belə ki, Azərbaycan 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının həcmini 35 faizə və 2050-ci ilə qədər isə 40 faiz azaltmağı qarşıya mühüm vəzifə kimi qoyur.

Onu da bildirək ki, erməni faşizminin işğal dövründə xarabalığa çevirdiyi Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları dövlətimizin başçısı tərəfindən “Yaşıl enerji” zonası elan edilib. Eyni zamanda, həmin ərazilərin dayanıqlı kənd təsərrüfatı, ekoloji cəhətdən təmiz nəqliyyat, “ağıllı” şəhərlər, “ağıllı” kəndlər kimi innovativ yanaşmalara əsaslanmaqla və minlərlə hektar sahədə meşələri bərpa etməklə 2050-ci ilədək “Netto sıfır emissiya” zonasına çevrilməsi nəzərdə tutulub.

Neft-qaz ölkəsi olan Azərbaycan “yaşıl enerji” növlərinin yaradılmasını və onun dünya bazarlarına nəqlini hazırda enerji siyasətinin yeni prioritet istiqaməti kimi müəyyənləşdirib. COP29-un Bakıda keçirilməsi qərarının verilməsi, habelə beynəlxalq aləmdə razılıqla qarşılanması da məhz vurğulanan siyasətdən qaynaqlanıb. Şübhəsiz ki, bu zaman Prezident İlham Əliyevin bu sahədə – bərpaolunan enerji potensialının gerçəkləşdirilməsi ilə bağlı məqsədyönlü fəaliyyəti də əsaslı rol oynayıb.

Beləliklə, COP29 sülhə, əmin-amanlığa yol açır, rifaha xidmət edir. Azərbaycan ilə Ermənistan arasında vasitəçisiz, birbaşa kommunikasiya əsasında COP-la bağlı əldə edilmiş razılaşma bu qlobal tədbirin sülhpərvər mahiyyətini bir daha nümayiş etdirir. COP mövzuları bəşəriyyəti, müxtəlif dövlətləri, dövlətlər qrupunu, düşərgələri ümumi məqsəd naminə səfərbər edən, birləşdirən qüvvədir. COP həmrəylik, qlobal məsuliyyəti bölüşmək və əməkdaşlıq platformasıdır. Bir sözlə, COP29 beynəlxalq konfrans kimi məsuliyyətli bir tədbirdir. Məsələ ilə bağlı ilk iclasın dövlətimizin başçısının rəhbərliyi ilə keçirilməsi də bu fikrin parlaq ifadəsidir.

# Qarabağda “Arximed” qurğusu işə salınıb

## *Bölgədə “ağıllı” enerji şəbəkəsi yaradılır*



**Energetika Nazirliyinin məlumatına əsasən, azad olunmuş ərazilərdə ümumi gücü 636 kilovat olan “Arximed” qurğusu, 300-dən çox fərdi yaşayış evində, ictimai və sosial binalarda ümumi gücü 2000 kilovatdan çox olan günəş enerjisi sistemləri, günəş enerjisi əsaslı, enerji səmərəli işıq dirəkləri, “ağıllı dayanacaqlar”, elektrikdoldurma məntəqələri quraşdırılıb.**

Məlumatda qeyd edilir ki, reallaşdırılan layihələr davamlı proseslərdir və bütün səylər bu innovativ təcrübənin geniş tətbiqinə, azad edilmiş ərazilərin enerji səmərəliliyində nümunəvi bölgəyə çevirməyə səfərbər olunub. Qarabağ və Şərqi Zəngəzurun xalis sıfır emissiyalı “yaşıl” enerji zonası kimi qurulması 2050-ci ilə karbon emissiyalarının 40 faiz azaldılması hədəfinə doğru aparan yolun əhəmiyyətli hissəsi kimi qarşıya mühüm vəzifə kimi qoyulub.

Hidroenerji potensialı yüksək olan Qarabağ və Şərqi Zəngəzurda su elektrik stansiyaları bölgənin təmiz enerji təminatının əsas mənbəyidir. Bu regionların elektrik enerjisi tələbatı 100 faiz “yaşıl” enerji hesabına təmin edilir və tələbatdan artıq qalan həcm ölkə enerji sisteminə ötürülür.

İşğaldan azad edilən ərazilərdə indiyə kimi 270 meqavat gücündə 32 su elektrik stansiyası istismara verilib. Bu, il ərzində 600 milyon kilovat-saatdan çox “yaşıl” enerjinin istehsalı, 160 milyon kubmetrdən artıq təbii qaza qənaət edilməsi, atmosferə atılan karbon qazının həcminin isə 330 min tondan çox azalması deməkdir.

Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 10 oktyabr tarixli sərəncamı ilə təsdiqlənən “Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya”nın 2024–2027-ci illərdə həyata keçirilməsi üzrə Tədbirlər Planı bu ərazilərdə daha 28 su elektrik stansiyasının tikintisini nəzərdə tutur. Onlardan ümumi gücü 37,5 meqavat olan 6 kiçik su elektrik stansiyasının tikintisi aparılır. Bundan başqa, kiçik su elektrik stansiyalarının bərpasına özəl investisiyanın cəlb edilməsi istiqamətində Kəlbəcər və Laçında Həkəri və Tərtər çayları üzərində yerləşən 5 kiçik su elektrik stansiyasının bərpa edilərək istismara verilməsi ilə bağlı Türkiyənin “Demirören Yatırım Holding A.Ş.”, “Arges Enerji Team” MMC və Azərbaycan İnvestisiya şirkətləri arasında ötən ilin dekabrında imzalanmış müqaviləyə əsasən Laçında kiçik su elektrik stansiyalarından birinin təməli qoyulub, digər stansiyalarla bağlı müvafiq tədbirlər görülür.

Bütün bunlarla bərabər, bu ilin mayında açılışı olan “Xudafərin” və “Qız Qalası” hidroqovşaqlarının, yaxın perspektivdə istifadəyə veriləcək 140 meqavat gücündə su elektrik stansiyalarının Şərqi Zəngəzurun “yaşıl” enerji zonası kimi inkişafının mühüm elementləridir. Ümumi gücü 500 meqavat olan 5 günəş, eləcə də külək elektrik stansiyalarının inşası ilə bağlı planlar üzrə investorlarla əməkdaşlıq da bu strateji bölgəni “yaşıl” enerjinin istehsalı və ixracının mühüm mərkəzlərindən birinə çevirəcək.

# “Xızı–Abşeron” KES-yə avadanlıq gətirilib

**Səudiyyə Ərəbistanının “ACWA Power” şirkətinin Azərbaycanda inşa etdiyi 240 MVt-lıq “Xızı-Abşeron” Külək Elektrik Stansiyasında quraşdırılacaq turbinlərin pərləri artıq Bakıya gətirilib.**

Qeyd edək ki, “Xızı–Abşeron” KES-in təməlqoyma mərasimi 2022-ci ilin yanvarın 13-də reallaşıb. Layihə çərçivəsində hər biri 6 MVt gücündə olan 40 ədəd külək turbin qurğusu quraşdırılacaq. Abşeron rayonunun Pirəkəşkül kəndində 17 külək turbini, Xızının Sitalçay yaşayış məntəqəsində isə



ümumi gücü 23 ədəd külək turbininin quraşdırılması planlaşdırılır.

Layihə “tik – sahib ol – idarə et” prinsipi əsasında həyata keçiriləcək. Layihənin ümumi dəyəri 300 milyon ABŞ dolları, investoru “ACWA Power” şirkətidir. Elektrik stansiyasında illik 1 milyard kilovat/saat elektrik enerjisi istehsal olunacaq, eyni zamanda, 220 milyon kubmetrədək qaza qənaət ediləcək. Külək elektrik stansiyasının 2025-ci ildə istismara verilməsi planlaşdırılır.

# Sarayevo Forumunda COP29-a dəstək

**Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin məlumatına görə, Sarayevoda keçirilən “Bosniya və Herseqovina İqtisadi Forumu 2024”forumu ölkənin Avropa İttifaqına inteqrasiya və dayanıqlı inkişaf istiqamətindəki addımlarına həsr edilib. Mərkəzlə əməkdaşlıq çərçivəsində təşkil edilən forumun əsas mövzularından biri COP29 və gələcək inkişafın maliyyələşdirilməsi olub.**



“Dayanıqlı inkişafın maliyyələşdirilməsi – Gələcək sammiti və COP29-dan sonra” adlı paneldə BMT-nin Bosniya və Herseqovinadakı rezident koordinatoru İnqrid Makdonald, Bosniya və Herseqovina Xarici Ticarət və İqtisadi Əlaqələr Nazirliyinin müavini Admir Softiç, Monteneqronun Avropa İttifaqı üzrə Maliyyə Dəstəyi Koordinasiyası İdarəsinin baş direktoru Boyan Vujoviç və “Tondach” şirkətinin təsisçisi Jasmin Hoso çıxış ediblər. İştirakçılar COP29-un iqtisadi siyasətlərə təsiri, “yaşıl” və rəqəmsal keçidlər, Dayanıqlı İnkişaf Məqsədlərinin maliyyələşdirilməsi və Avropa İttifaqı standartlarına uyğunlaşma kimi mövzularda konkret addımların atılmasının vacibliyini vurğulayıblar.

İclasında dayanıqlı inkişafın maliyyələşdirilməsi və COP29-un regiona təsiri barədə müzakirələr aparılıb, iqlim konfransının regionda davamlı inkişafın təmin edilməsində mühüm rol oynayacağı bildirilib və beynəlxalq əməkdaşlığın gücləndirilməsinin əhəmiyyəti qeyd olunub.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü, Bosniya və Herseqovinanın sabiq baş naziri və BMT-dəki daimi nümayəndəsi Zlatko Laqumdziya foruma bu sözlərlə yekun vurub: “Dayanıqlı inkişaf, sülh və rifah yolu ilə irəliləmək üçün birgə səylərimizi davam etdirməyə qətiyyətliyik”.

# AİB-in iqlim savaşına maliyyə dəstəyi çağırışı

**COP29-un müəyyən edilmiş prezidenti, Azərbaycanın ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev Asiya İnkişaf Bankının rəhbəri Masasuqu Asakava ilə Vaşinqtonda iqlimin maliyyələşdirilməsinin innovativ üsullarını müzakirə edib.**

Bu barədə AİB rəhbəri “X” sosial şəbəkəsindəki paylaşımında bildirib: “İqlimin maliyyələşdirilmə həcminin artırılması qlobal istiləşmənin səbəb olduğu artan iqtisadi problemlərin həllinin yeganə yoludur və çoxtərəfli inkişaf bankları bu məsələni diqqətdə saxlamalıdır”.

Paylaşımda daha sonra Vaşinqtonda COP29-un prezidenti Muxtar Babayevlə AİB-nin töhfələri, o cümlədən 100 milyard dollarlıq iqlim maliyyəsi təşəbbüsü, innovativ maliyyələşdirmə üsulları və artan kredit imkanlarının müzakirə edildiyi vurğulanıb.

*Səhifəni hazırladı:*
*Vaqif BAYRAMOV*
*XQ*




# Azərbaycan “yaşıl artım” ölkəsinə çevrilir

## *Qarabağ isə alternativ enerji poliqonudur*



**Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin direktoru Cavid Abdullayev bildirib ki, işğaldan azad edilmiş ərazilərimizdə – Zəngilan, Cəbrayıl bölgələrində günəş, Kəlbəcər və Laçında isə külək potensialı mövcuddur.**

Onun sözlərinə görə, artıq Laçın və Kəlbəcər rayonlarında külək potensialının ölçülməsi işlərinə start verilib: “Qarabağda xüsusi ölçü stansiyaları artıq inşa olunub. Küləyin özəlliyi ondan ibarətdir ki, bir il müddətinə həmin ərazidə ölçü prosesi həyata keçirilməlidir. Yalnız belə halda ki, küləyin sürətinə əsasən müəyyən kommersiya təklifləri vermək mümkündür”.

Bərpaolunan enerji ehtiyatı baxımından Azərbaycan günəş potensialı ilə də çox zəngindir. Azərbaycanda son illər bu sahədə bir sıra mühüm layihələr reallaşdırılıb. MDB-də ən böyük və Xəzər dənizi regionunda ilk sənaye miqyaslı günəş elektrik stansiyası – 230 MVt-lıq Qaradağ Günəş Elektrik Stansiyası istismara verilib. Eyni zamanda, həmin stansiyanın açılışı zamanı digər yeni layihələrin də əsası qoyulub. Belə ki, “Masdar” şirkəti ilə Neftçalanın Bankə qəsəbəsində 315 MVt-lıq, Biləsuvarda isə 445 MVt-lıq günəş elektrik stansiyalarının tikintisi ilə bağlı layihə imzalanıb.

Avropa Yenidənqurma və İnkişaf Bankının bu günlərdə yayılan məlumatında adıçəkilən maliyyə qurumunun Neftçala rayonunun Bankə qəsəbəsində “Banka Solar” günəş fotoelektrik stansiyasının layihələndirilməsi, tikintisi və istismarı üçün 80 milyon dollara qədər uzunmüddətli kredit verəcəyi bildirilib. Məlumatda əsasən, layihənin ümumi dəyərinin 280 milyon dollar təşkil etdiyi vurğulanıb. Stansiyanın tikintisini isə Birləşmiş Ərəb Əmirliyinə məxsus “Masdar” şirkətinin törəmə strukturu olan “Abu Dhabi Future Energy Company”nın reallaşdıracağı qeyd edilib.

Layihə yekunlaşandan sonra Azərbaycanın enerji sisteminə 315 MVt günəş enerjisi əlavə ediləcək və bu, təbii qazla işləyən elektrik stansiyalarını əvəz etməyə imkan verəcək. Ən başlıcası isə təşəbbüsün gerçəkləşməsi ölkəmizin Paris sazişi çərçivəsində bərpaolunan enerji məqsədlərinə çatmasına kömək edəcək. Proqnoza əsasən, layihə həyata keçirilməsi ilə il ərzində 314 min ton CO2 emissiyası azalacaq, həmçinin Azərbaycanın aşağı karbonlu iqtisadiyyata keçidində və istilik generasiyasından asılılığın azaldılmasında müsbət nəticə əldə olunacaq.

Külək enerjisi ilə bağlı isə onu qeyd edək ki, Azərbaycanının dəniz külək enerjisinin inkişafı üzrə Yol xəritəsində 2040-cı ilədək respublikamızın Xəzər şelfində ümumi gücü 7,2 QVt olan dəniz külək stansiyalarının quraşdırılması nəzərdə tutulur. Bu, Azərbaycanın dekarbonizasiya və davamlı inkişaf sahəsində prioritetlərinə uyğundur. Dəniz külək enerjisinin quraşdırılmış gücü ölkənin enerji təchizatının 37 faizini gerçəkləşdirə bilər. Bundan əlavə, ekspertlərin fikrincə, Azərbaycanda dəniz külək enerjisi mülayim templə inkişaf edərək 2040-cı ilədək quraşdırılmış gücünü 1,5 QVt-a çatdıracağı və bununla da 7 faiz karbonsuz enerji istehsalına nail olunacağı gözlənilir.

Azərbaycanın adıçəkilən yol xəritəsində dəniz külək enerjisinin potensialından istifadəyə dair tövsiyələr də var. Bunlara 2030 və 2036-cı illər üçün hədəflərin müəyyən edilməsi, 200 MVt gücündə pilot layihənin və daha sonra böyük layihələrin işlənib hazırlanması, dənizdə yeni külək enerjisi imkanlarının açılması, infrastrukturun təkmilləşdirilməsi, maliyyə vəsaitlərinin cəlbi məqsədilə qabaqcıl qlobal təcrübələrin tətbiqinə başlanılması və dayanıqlı dəniz külək layihələri üzrə bir sıra tədbirlərin reallaşdırılması və bu istiqamətlərdə dövlət təşkilatları əməkdaşlarının bilik və bacarıqlarının artırılması daxildir.

### Ekspert rəyi

**Samir HEYDƏROV,**
**iqtisadçı–ekspert**



Mütəxəssislər bildirirlər ki, Günəşin nüvəsindəki hidrogen qazının heliuma çevrilməsi nəticəsində yaranan günəş enerjisi ilə bağlı araşdırmalar əsasən, ötən əsrin 70-ci illərindən etibarən aktuallıq qazanmağa başlayıb. Günəş enerjisi tükənməz və güclü enerji mənbəyi olsa da, dünyanın hər yerində eyni miqdarda əldə edilə bilmir. Belə ki, onun əldə edilməsi üçün infrastrukturun bol günəş alan ölkələrdə və ya ərazilərdə quraşdırılması enerjinin səmərəli formada gerçəkləşməsinə imkan verir. Günəş enerjisi istilik, işıq və enerji istehsal etmək üçün istifadə edilir. Məsələn, Almaniyada damlarda quraşdırılan günəş panelləri günəş enerjisini yığır və onu elektrik enerjisinə çevirir.

Günəş enerjisindən istifadə və günəş enerjisi stansiyalarının gücü baxımından dünyada Çin, ABŞ, Yaponiya və Almaniya ilk sıralarda yer alıb. Çin hökuməti ölkədə günəş enerjisi sektorunun inkişafı üçün 2009-cu ildə “Qızıl günəş” stimullaşdırma planını elan edib. Bu proqramın tətbiqi nəticəsində fiskal subsidiyalar Çində günəş enerjisi sektorunun genişlənməsində mühüm rol oynayıb. Belə ki, bu proqram mənzillərdə fotovoltaik elektrik enerjisi istehsalı qurğularının qurulmasının səmərəliliyini əhəmiyyətli dərəcədə artırıb və enerjiyə məhdud çıxışa malik kənd yerlərində yaşayan sakinlərə təmiz enerji təminatını yaxşılaşdırıb. “Qızıl günəş” proqramının uğursuzluğu isə icra siyasətində sistemli dizaynın, effektiv koordinasiyanın və tənzimləmənin qurulmaması, institusional çatışmazlıqlarla bağlı olub.

Qeyd edim ki, 2060-cı ilə qədər tamamilə karbon–neytral olmağı hədəfləyən Çin günəş enerjisi sahəsində liderdir. 2019-cu ildə Çin firmaları dünyadakı silikon əsaslı fotovoltaik panellərin ilkin tikinti bloku olan polisilikonun 66 faizini istehsal edib. Bundan əlavə, qeyd edilən il üzrə günəş batareyalarının dörddə üçündən çoxu, dünya üzrə fotovoltaik panellərin isə 72 faizi Çin istehsalıdır. Bununla belə, dünyanın 10 ən böyük günəş parkından beşi Çində fəaliyyət göstərir.

Çinin bərpaolunan enerji daşıyıcısının uğuru bu ölkənin elektrik şəbəkəsi üzrə tarif subsidiyalarının səmərəliliyini tam şəkildə nümayiş etdirir. Belə ki, tarif siyasəti vasitəsilə hökumət alternativ enerji istehsalını daha rəqabətli, biznes və investorlar üçün cəlbedici edə bilər.

Bütün bu layihələr qlobal çağırışların önündə gedən Azərbaycanın hazırda bir çox istiqamətlər üzrə yeni dövrün tələblərinə ən yüksək səviyyədə reaksiya verən ölkələrdən biri kimi tanındığını deməyə əsas verir. Belə çağırışlardan ən önəmlisi isə bütün dünyada ildən–ilə artan enerji tələbatının ekoloji cəhətdən təmiz, “yaşıl” yollarla ödənilməsidir. İstehsalı bərpaolunan enerji mənbələrinə əsaslanan bu cür potensial isə hazırda respublika üzrə 27 min meqavat həcmində qiymtləndirilir.

Bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsinin Prezident İlham Əliyevin prioritet vəzifə olaraq irəli sürdüyü və 2030-cu ilədək elektrik enerjisinin qoyuluş gücündə payının 30 faizə çatdırılmasının (hazırda 17 faiz təşkil edir) hədəf kimi müəyyənləşdirildiyi nəzərə alınmaqla bu istiqamətdə bir çox işlər görülür. Dövlət başçısının Qarabağ və Şərqi Zəngəzurla bərabər, Naxçıvanı da “yaşıl” enerji zonası elan etməsi bu hədəfə çatmağın mühüm istiqaməti kimi diqqət mərkəzində saxlanılır.

# İqlim konfranslarında ilk “Çağrı mərkəzi”




**COP29 Azərbaycan Əməliyyat Şirkətinin Ziyarətçi təcrübəsi üzrə şöbə müdiri İlkin Cavadov jurnalistlərə açıqlamasında deyib: “Noyabrdan etibarən COP29-la bağlı xüsusi “Çağrı mərkəzi” yaradılacaq. Bu indiyə qədər keçirilən COP tədbirləri çərçivəsində bir ilk olacaq. Konfrans iştirakçıları və şəhərimizin qonaqları tədbirlə bağlı hansısa sualları olduqda “Çağrı mərkəzi”nə müraciət edərək məlumat əldə edə biləcəklər”.**

O bildirib ki, mərkəzə sorğular verilməsi ənənəvi üsulla, yəni zəng vasitəsilə yanaşı, eyni zamanda, onlayn çatla da mümkün olacaq. Belə ki, tədbir iştirakçıları və qonaqlar veb-sayt üzərindən çat, həmçinin vatsap və teleqram kanalları vasitəsilə əlaqə saxlayıb hər hansı bir məlumatı sorğulaya biləcəklər.

# “Təmiz” binaların “yol xəritə”si

**Beynəlxalq Maliyyə Korporasiyasının dayanıqlı maliyyə mütəxəssisi Leyla Hüseynli Bakıda keçirilən “Dayanıqlı mikromaliyyə üçün innovativ həllər” konfransında təmsil etdiyi qurumun maliyyə portfelinin 43 milyard dollar təşkil etdiyini və həmin məbləğin 29 milyard dollarının “yaşıl” maliyyəyə, dayanıqlı inkişaf və iqlim ilə bağlı layihələrə yönəldildiyini bildirib.**



L.Hüseynlinin sözlərinə görə, korporasiya ilə Dövlət Arxitektura və Şəhərsalma Komitəsi arasında bağlanılan memorandum əsasında “yaşıl” tikinti sektoru üçün yeni tənzimləmə və dəstək mexanizminin (“yol xəritəsi”) hazırlanması başa çatacaq və COP29-dan əvvəl təqdim ediləcək.

# Özəl sektorun ekoloji hədəfləri




**COP29-un baş danışıqçısı Yalçın Rəfiyev qarşıdan gələn COP29-da özəl sektorun imkanlarını müzakirə etmək üçün Vaşinqtonda işgüzar dairələrin nümayəndələri ilə görüşüb.**

COP29-un “X” sosial şəbəkəsindəki rəsmi səhifəsində iqlim konfransının baş danışıqçısı Yalçın Rəfiyevin qarşıdan gələn bu nüfuzlu toplantıda özəl sektorun imkanlarını müzakirə etmək üçün Vaşinqtonda işgüzar dairələrin nümayəndələri ilə görüşdüyü vurğulanıb.

“ABŞ Ticarət Palatası tərəfindən təşkil olunmuş “dəyirmi masa” iqlim maliyyəsinin artırılmasında özəl sektorun roluna və COP29 gündəliyinin həyata keçirilməsində işgüzar dairələrin fəal iştirakına həsr olunub”, – məlumatda bildirilib.

# Aqrar harmoniya təşəbbüsü



**Kənd Təsərrüfatı Nazirliyi və Aqrar Sahə İşçilərinin Həmkarlar İttifaqı Birliyinin birgə təşkilatçılığı, nazirliyin rəhbər şəxslərinin iştirakı ilə “Town Hall” formatında keçirilən tədbirdə aqrar sahədə görülən işlər və nəzərdə tutulan layihələr müzakirə edilib, aqrar sahənin aktual mövzularına dair təqdimatlar olub.**

Nazirliyin ictimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsinin məlumatına görə, toplantıda “Fermer təsərrüfatlarının dayanıqlı məlumat şəbəkəsi”, “Aqrar sahədə süni intellekt”, “Taxıl yığımının izlənilməsi sistemi” kimi innovativ layihələr, o cümlədən işğaldan azad edilmiş ərazilərdə torpaqdan istifadə qaydaları, Ağalı kəndində pilot layihə kimi icra olunan yeni parselləmə modeli ilə bağlı təqdimatlar keçirilib, bu istiqamətdə fikir mübadiləsi aparılıb.

COP29 barədə təqdimatda qeyd olunub ki, iqlim konfransı çərçivəsində keçiriləcək “Qida, kənd təsərrüfatı və su Günü”ndə də iqlim dəyişikliyi və iqliməuyğun kənd təsərrüfatının mövzusuna xüsusi toxunulacaq, 14 qlobal təşəbbüsdən biri – kənd təsərrüfatı, ətraf mühit və iqlim məsələlərinə həsr olunan “Bakı harmoniya iqlim təşəbbüsü” təqdim ediləcək.

*Səhifəni hazırladı:*
***Vaqif BAYRAMOV***
***XQ***

İlyas Əfəndiyev – 110

# Ölməz sənət yolunun bələdçisi

**XX əsr Azərbaycan ədəbiyyatının klassiki, Xalq yazıçısı İlyas Əfəndiyevin anadan olmasının 110 illik yubileyinə həsr edilmiş tədbir, həmçinin "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından nəşr olunan "İlyas Əfəndiyev. Biblioqrafiya" kitabının və elektron məlumat bazasının təqdimat mərasimi keçirilib.**



Milli Kitabxananın direktoru, professor Kərim Tahirov mərasimi açaraq deyib ki, İlyas Əfəndiyev ölkə ədəbiyyatında öz yolu olan nadir şəxsiyyətlərdəndir. Onun yaratdığı ədəbi və dram məktəbi bir örnəkdir, Azərbaycan teatrları öz mövsümlərini İlyas Əfəndiyevin əsərləri ilə açır. Natiq vurğulayıb ki, yazıçının əsərləri aktuallığını daim qoruyub saxlayır. Təsadüfi deyil ki, kitabxana tərəfindən "İlyas Əfəndiyev. Biblioqrafiya" kitabı 2-ci dəfə təkmilləşdirilərək tərtib edilib.

Mədəniyyət nazirinin müavini Fərid Cəfərov İlyas Əfəndiyevə həsr edilən biblioqrafiya kitabının nəşr olunmasını onu sevənlər, əsərlərini oxuyanlar, bu əsərlərlə böyüyən nəsillər üçün çox maraqlı və aktual hadisə olduğunu deyib. O, İ.Əfəndiyev yaradıcılığında böyük yer tutan önəmli, taleyüklü məsələlərin ortaya qoyulmasının, xüsusilə Qarabağla sıx bağlı olan "Xurşidbanu Natəvan", "Hökmdar və qızı" kimi əsərlərin yazılmasının Xalq yazıçısının dühasının, cəsarətinin göstəricisi olduğunu diqqətə çatdırıb.

Milli Məclisin Mədəniyyət komitəsinin sədri, Xalq artisti Polad Bülbüloğlu biblioqrafiya kitablarının xüsusilə tarix üçün çox vacib sənəd və sənədlər toplusu olduğunu qeyd edib. Peşəkar olaraq maraqlananlara elmi işlər yazmaq, tədqiqat aparmaq, böyük şəxslər haqqında fikir söyləmək üçün biblioqrafiya kitablarının böyük rolu olduğunu söyləyib. Yaradıcılığından başqa, Azərbaycan ailəsinin başçısı olaraq xalqımıza gözəl insanlar bəxş edən İlyas Əfəndiyevin təvazökar insan olduğunu bildirib.

Atatürk Mərkəzinin direktoru, akademik Nizami Cəfərov görkəmli yazıçı-dramaturq İlyas Əfəndiyev haqqında danışmağın Azərbaycan ədəbiyyatının, mədəniyyətinin, hətta siyasətinin böyük bir dövrü haqqında danışmaq demək olduğunu vurğulayıb. Deyib ki, İlyas Əfəndiyev maraqlı şəxsiyyət olub.

Akademik Muxtar Kazımoğlu Azərbaycan ədəbiyyatında Cəfər Cabbarlıdan sonra İlyas Əfəndiyevdən başqa ikinci bir böyük dramaturqun olmadığını söyləyib. O, dramaturgiyamızda lirik-psixoloji üslubun inkişafının İlyas Əfəndiyevin dram əsərləri ilə bağlı olduğunu qeyd edib.

Xalq artisti, rejissor Mərahim Fərzəlibəyov çıxışı zamanı İlyas Əfəndiyev yaradıcılığının bir xəzinə olduğunu "İlyas Əfəndiyev. Biblioqrafiya" kitabının isə bu xəzinənin qızıl açarı olduğunu söyləyib.

Xalq yazıçısı Elmira Axundova, sənətşünaslıq doktoru, professor Məryəm Əlizadə, Azərbaycan Yazıçılar Birliyinin katibi Səlim Babullaoğlu, "Azərnəşr"in baş redaktoru Əlövsət Ağalarov İlyas Əfəndiyevin təkcə Azərbaycan nəsrində deyil, həm də teatr sənətinin müasir simasının formalaşmasında, eləcə də ölməz səhnə əsərlərinin bir neçə aktyor və rejissor nəslinin yetişməsində əhəmiyyətli rol oynadığını vurğulayıblar. Ədibin əsərlərinin dünyanın onlarla ölkəsində müxtəlif dillərə tərcümə olunduğu qeyd edilib.

Sonda çıxış edən Xalq yazıçısı Elçin Əfəndiyev Mədəniyyət Nazirliyinə, Milli Kitabxanaya, çıxışçılara dərin minnətdarlığını bildirdib. O, İlyas Əfəndiyevin daim ədəbiyyata xidmət edən yazıçı kimi həmişə oxucuları ilə bir yerdə olduğunu söyləyib.

Sonra tədbir iştirakçıları Milli Kitabxananın əməkdaşları tərəfindən hazırlanmış "İlyas Əfəndiyev" elektron məlumat bazası ilə tanış olublar.

Qeyd edək ki, elektron məlumat bazasında "Rəsmi sənədlər", "Həyat və fəaliyyətinin əsas tarixləri", "Görkəmli şəxslər İlyas Əfəndiyev haqqında", "İlyas Əfəndiyev düşüncələrindən sətirlər", "İlyas Əfəndiyev Dünya Milli və Universitet Kitabxanalarında", "Əsərləri", "Haqqında", "Fotoqalereya", "Videoqalereya" və s. özündə əks etdirən materiallar tam mətnləri ilə nümayiş olunur.

***XQ***

Füzuli – 530

# Ana dilimizi poeziya zirvəsinə yüksəltmiş şair



**AMEA-nın Dilçilik İnstitutunun təşkilatçılığı ilə dahi Azərbaycan şairi Füzulinin 530 illik yubileyinə həsr olunan respublika konfransı keçirilib.**

"Məhəmməd Füzuli poeziyasının dili və üslubu" mövzusunun müzakirə edildiyi konfransda Humanitar Elmlər Bölməsinin Elmi şurasının sədr müavini, akademik Teymur Kərimli dahi şairin anadilli poeziyamızın başında duranlardan biri olduğunu söyləyib. O bildirib ki, Məhəmməd Füzuli poeziyasının dili və üslubu öz zənginliyini, istiqamətini, inkişaf xəttini, orijinallığını xalq dilinə bağlılığı ilə əldə edib. Ədibin poeziyası ədəbi mədəniyyətin ən mükəmməl nümunəsidir. Füzuli bu gün də bizim müasirimizdir və şairin irsi xüsusən müstəqil dövlətçiliyimizdə yeni məna kəsb edir.

Dilçilik İnstitutunun direktoru, professor Nadir Məmmədli çıxışında Məhəmməd Füzulinin eşq fəlsəfəsindən və onun əsas mahiyyətindən danışıb.

Şairin həcmcə ən böyük əsəri olan "Hədiqətüs-süəda"nın ("Xoşbəxtlər bağçası") dini düşüncə, iman və əqidə duyğularının bədii əksi kimi səciyyəvi əsər olduğunu bildirib. Ulu öndər Heydər Əliyevin Məhəmməd Füzuli irsinin təbliği ilə bağlı gördüyü tarixi işlərdən danışan alim dahi liderin İraqda böyük bir heyətlə birgə Füzulinin qəbrini ziyarət etdiyini, şairin 500 illik yubileyinin Azərbaycanda yüksək səviyyədə qeyd olunduğunu xatırladıb.

Daha sonra professor Sayalı Sadıqovanın "Məhəmməd Füzuli əsərlərinin terminoloji leksikası" mövzusunda məruzəsi dinlənilib. Məruzəçinin sözlərinə görə, şairin yaradıcılığında müxtəlif elm sahələri, o cümlədən ədəbiyyatla bağlı yüzlərlə termin işlənib və həmin terminlərin müəyyən qismi semantik zənginliyi ilə diqqəti cəlb edir.

Konfransda Füzuli yaradıcılığında konsept problemi, şairin anadilli qəzəllərinin dili, onun əsərlərində bədii ifadə vasitələri, başlıqların semantik, funksional və üslubi xüsusiyyətləri haqqında məruzələr dinlənilib.

***XQ***

19-cu Bakı Caz Festivalı

# Dünya cazmenləri Azərbaycan səhnəsində

**Oktyabrın 17-dən başlanan festivala 11 ölkədən olan ünlü sənətçilər qatılıblar. Cazın xoş əks-sədaları Beynəlxalq Muğam Mərkəzi, Azərbaycan Milli Konservatoriyası, "Jolly Joker" konsert meydançası və ADA Universitetindən gəlir. Dünya virtuozları öz məharətlərini həvəslə göstərir, seyrçilərdə zəngin təəssürat yaradırlar. Bütün bunlarsa ona dəlalət edir ki, bizim ölkəmizdə də caz musiqisi çox məşhurdur.**



Artıq bir həftədir ki, Bakıda ənənəvi caz, etno-caz, bossa nova, caz-rok kimi üslublarda konsertlər, həmçinin görüşlər, sərgi və ustad dərsləri anşlaqla keçir, təqdimatlar maraqla qarşılanır. Bayramın əsas təşkilatçıları Rain Sultanov və Leyla Əfəndiyevadır.

Bayramda birinci çıxış etmək görkəmli braziliyalı bəstəkar və multiinstrumentalçı Munir Hossna müyəssər oldu. O, Azərbaycana gəlməsinə və caz festivalının açılışını etməsinə görə sevindiyini bildirdi, dəvətə və səmimi qəbula görə təşkilatçılara təşəkkür etdi. Onunla birlikdə ELAS qadın qrupunun çıxışı hamılıqla bəyənildi.

Növbəti gün Beynəlxalq Muğam Mərkəzində İsveçin ən yaxşı pianoçularından olan Mattias Nilssonun konserti oldu. İsveç Krallığının ölkəmizdəki səfiri Tobias Lorentzson çıxış edərək, elə tədbirlər həm də dostları bir araya gətirdiyini və səfirliyin hər zaman bu festivala dəstək olduğunu söylədi. Sonra dünyanın 36 ölkəsində 2 mindən çox konsert vermiş Mattias Nilson piano arxasına keçərək ən səmimi və qəlboxşayan, orijinal musiqilərini səsləndirdi.

Festivalının iştirakçıları arasında almaniyalı və norveçli musiqiçilərdən ibarət "Simin Tander Trio"su da var. Qrup Beynəlxalq Muğam Mərkəzinin səhnəsində parlaq çıxışı ilə yadda qaldı. Trionun (Simin Tander – vokal, Olav Torget – gitara, Jonas Torget – truba) ifasında caz kompozisiyaları ecazkar təsir bağışlayıb. Konsertin sonunda qrupun "Ay Laçın" Azərbaycan mahnısını ifa etməsi alqışlarla müşayiət olunub.

Xəyalı qanadlandıran bu dogma musiqi nələri yada salmadı! 28 il yarımlıq erməni işğalından azad olunub məskunlaşdırılan, gələn il üçün MDB-nin mədəniyyət paytaxtı seçilən Laçının ecazkar təbiəti, unudulmaz Niyazinin, Tofiq Quliyevin, Rafiq Babayevin özəl mahnı və kompozisiyaları, Vaqif Mustafazadənin, Tofiq Əhmədovun heyrətamiz variasiyaları…

Gözəl ifalarından sonra almaniyalı sənətçi Simin Tander ürək sözlərini belə ifadə etdi: "Bu, mənim Azərbaycana 2-ci səfərimdir. İlk dəfə 2022-ci ildə Rain Sultanovun dəvəti ilə burada çıxış etmişəm. Bakını çox bəyənirəm. Festivalın çox yaxşı ab-havası var, təşkilatçılıq mükəmməldir. Azərbaycanlı həmkarlarım əla musiqiçilərdir. Çox gözəldir ki, belə zəngin mədəniyyətə və yaxşı qorunan ənənələrə malik bir ölkədə müasir musiqinin təqdim olunduğu Bakı Caz Festivalı kimi festivallar keçirilir".

Konsert günü BMM-in foyesində rəssam Cəmilə Hacı-Səmədzadənin "İpək üzərində caz" adlı qurama sərgisi də nümayiş etdirilirdi. Müəllif əl işləri barədə dedi: "Bir neçə aydan bəri xüsusi olaraq caz festivalı üçün əsərlər hazırlamışam. Caz həmişə yaradıcı peşə sahiblərini ruhlandırır. Panelimdə caz triosunu təsvir etmək qərarına gəldim. Caz təkcə musiqi deyil, həm də azadlıq sevgisidir. Material qismində ipəyi seçməyim əbəs yerə deyildi. Bizim bəşəri musiqi ruhumuzun cərəyanı olan caz kimi ipək də axır. Onlar birlikdə çox ahəngdar görünür".

Ertəsi gün Azərbaycan Milli Konservatoriyasında Moldovadan olan musiqiçilərin çıxışları təqdim edildi. Vali Boghean Bandın orijinal improvizasiyaları caz həvəskarlarına, sözün əsl mənasında, böyük enerji bəxş elədi. Musiqi qrupu Balkan cazının, Avropanın etno-Şərq və klassik elementlərinin birləşməsindən ibarət olmaqla hər biri özünəməxsus müasir üslubda olan maraqlı proqramla dinləyicilərin könlünü oxşadı.

Dünən "Fairmont hotel"də yerləşən Caz-klubda Mədinə Sultan və italyan Lusi-Zanchini Masciari triosu çıxış etdi. İtalyan musiqiçilər "GONE" albomlarında yer alan kompozisiyaları səsləndirdilər. İki il əvvəl buraxılmış albom ötən müddətdə musiqisevərlər tərəfindən maraqla qarşılanır.

**Festival haqqında təəssüratlar da zəngindir. Musiqişünas, professor Zümrüd Dadaşova dedi:**

– İstənilən festivalın keçirilməsi böyük bayramdır. Digər tərəfdən, bu, genişmiqyaslı fəaliyyət deməkdir. Azərbaycanda festivalların zəngin ənənəsi var. Bu caz festivalı sayca 19-cudur və sevindirici mədəniyyət hadisəsidir. Azərbaycanda parlaq caz musiqiçiləri və bu musiqi janrını sevən çox gözəl dinləyicilər var. Zənnimcə, bu festival parlaq panoram yaradır. Çünki caz da musiqi mədəniyyətimizin üzvi və ayrılmaz hissəsidir. Bu ahəng mənbəyi, ritm kəskinliyi, müəyyən dərəcədə sərbəstlik temperamentimizə, improvizasiya həvəsimizə çox yaxındır. İmprovizasiya ruhu Şərq və Qərb musiqi mədəniyyətinin iki parlaq təzahürünü – muğam və cazı birləşdirən amildir.

**"Baku Piano Festival"ın direktoru Şahin Növrəsli:**

– Hər hansı bir yaxşı festivalın ölkəmiz üçün böyük əhəmiyyəti var. Populyar musiqiçilər gəlir, yaxşı proqramla çıxış edirlər və əlavə olaraq, bir çox maraqlı tədbirlər də təşkil edilir. Bakı Caz Festivalı dünyanın ən yaxşı və ən nüfuzlu caz festivalları sırasında yer alır. Hər payız mövsümündə caz həvəskarları bu tədbiri səbirsizliklə gözləyirlər.

**Aparıcı, müğənni Tofiq Həsənsoy:**

– Bakı hələ SSRİ dövründə caz şəhəri olub və 1967-ci ildən burada caz festivalları keçirilir. O zaman onların ömrü qısa idi. Bununla belə, Bakı Caz Festivalı uzun illərdir Bakıda caz ənənələrini qoruyub saxlayan və bu musiqi üslubunu sevənləri – müstəqil Azərbaycanda həm şəhərimizin sakinlərini, həm də qonaqları sevindirən ən uzun festivala çevrildi.

Azərbaycan cazı inkişaf edir. Musiqiçilərimiz bir çox dünya festivallarında Azərbaycan cazını təmsil edirlər. Azərbaycan cazının özünəməxsus üslubu var - bu, caz ənənələrinin milli elementlərlə sintezidir. Bu gün caz musiqiçilərimiz, əsasən də pianoçular Azərbaycan cazını dünya səhnələrində uğurla təbliğ edirlər. İstərdim ki, şəhərimizdə caz konsertləri, cem seansları, müxtəlif festivallar və tədbirlərə evsahibliyi edəcək çoxlu caz klubları, həmçinin ayrıca caz kolleci və caz orkestri olsun.

Qeyd edək ki, 19-cu Bakı Caz Festivalı oktyabrın 27-də başa çatacaq.

***Ə.DOSTƏLİ***
***XQ***

# Moskva Müslüm Maqomayevi unutmur

**Dünən Rusiya paytaxtında SSRİ və Azərbaycanın Xalq artisti Müslüm Maqomayevin xatirəsi ehtiramla anılıb.**



Dünya şöhrətli estrada və opera müğənnisinin Azərbaycan səfirliyinin yaxınlığında ucalan abidəsinin önünə Azərbaycanın Rusiyadakı Səfirliyi, Heydər Əliyev Fondunun Rusiya Federasiyasındakı nümayəndəliyi və "Crocus Group" şirkətlər qrupunun prezidenti Araz Ağalarovun adından əklillər qoyulub.

Dahi müğənninin pərəstişkarlarının toplaşdığı mərasimdə SSRİ Xalq artisti Tamara Sinyavskaya ömür-gün yoldaşı Müslüm Maqomayevin xatirəsinə göstərilən ehtirama görə hər kəsə minnətdarlığını bildirib: "Bilirsiniz ki, Müslümün doğum günündə mən onun vətəninə gedirəm. Onun vətəni təkcə Azərbaycan deyil, həm də özünün də dediyi kimi, Rusiyadır".

Azərbaycanın Rusiya Federasiyasındakı səfiri Rəhman Mustafayev bildirib ki, Müslüm Maqomayevin səsi və mahnıları bu gün də onun dünyadakı bütün heyranlarının qəlbini riqqətə gətirir, insanları böyük sənətin çevrəsində birləşdirir: "Müslüm Maqomayevin sənəti Azərbaycanı və Rusiyanı birləşdirəcək. Dahi sənətçi bütöv bir epoxadır və biz həmyerlimizlə fəxr edirik".

"Agalarov development" şirkətinin prezidenti Emin Ağalarov isə qeyd edib ki, Müslüm Maqomayev bütün dövrlərin ən böyük, ən istedadlı müğənnilərindən biri olub: "Müslüm Maqomayevin vəfatından 16 il keçir, lakin mənim şəxsən tanıdığım bu böyük insanın siması getdikcə aydınlaşır. Müxtəlif şəhərlərə qastrol səfərinə gedirəm və onun "Mavi əbədiyyət" mahnısı səslənəndə, ekranda yaraşıqlı, güclü Müslüm Maqomayev görünür və tamaşaçılar onu ayaq üstə qarşılayırlar".

**XQ**

# Daşkənddə Yunus Oğuzun əsərinin təqdimatı

**Daşkənddəki Əlişir Nəvai adına Özbək Dili və Ədəbiyyatı Universitetində Yunus Oğuzun özbək dilində nəşr olunan "Əmir Teymur" tarixi romanının təqdimatı keçirilib. Kitabı məşhur özbək şair və tərcüməçisi, mərhum Usman Kuçkar tərcümə edib.**





Mərasimi filologiya elmləri doktoru Gülbahar Aşurova açaraq Yunus Oğuzun Özbəkistanda yaxşı tanındığını diqqətə çatdırıb.

Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi direktorunun müavini Nadir Əlimirzəyev Yunus Oğuzun bir neçə kitabının Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə çap edildiyini diqqətə çatdırıb, yazıçının əsərlərinin Türkiyə, İran, Qazaxıstan, Qırğızıstan və digər ölkələrdə də nəşr olunduğunu bildirib. Alim və tərcüməçi Babaxan Şərif "Əmir Teymur" romanının bədii dəyəri haqqında söhbət açıb, kitabın gələcəkdə tarixi araşdırmaq üçün dəyərli bir mənbə olacağını qeyd edib.

Universitetin prorektoru Gülnoza Əhmədova, professorlar Boqijon Toxliyev, Səadət Muxammedova, Abdulla Uluqov, Behbud Batirov və başqaları Azərbaycan-Özbəkistan ədəbi əlaqələri, Yunus Oğuzun yaradıcılığı haqqında söhbət açıblar.

**Qulu KƏNGƏRLİ,**
**XQ-nin Türküstan müxbiri**
**Daşkənd**

# Pamir – Ümumdünya Təbiət İrsi siyahısına salınmış dağ



### İkinci yazı

Mərkəzi Asiyanın ən gözəl şəhərlərindən olan Düşənbəyə səfərim haqqında qələmə almaq istədiyim sətirləri bu əsrarəngiz diyarda qonağı olduğum hotelin adı ilə başlamaq istəyirəm. "İsra" hoteli. Bu sözün müqəddəs dinimizlə bağlı olduğunu bilirdim. Üstəlik, həmin oteldə fəaliyyətin İslam ədəb-ərkanı, müsəlmançılıq qayda-qanunları ilə idarə edilməsi də məni çox məmnun eləmişdi.

Bakıya qayıdandan sonra isə bu faktla bağlı internetə müraciət elədim. Oxuduğum materiallarda yazılır ki, "İsra" gecə səyahəti deməkdir. Yəni bu söz Məhəmməd peyğəmbərin (s.ə.s.) həyatında hicrətdən əvvəl, Məkkə dövründə baş vermiş məşhur bir hadisə ilə bağlıdır. Məhəmməd peyğəmbər (s.ə.s.) bir gecə Allahın əmri və dəvəti ilə yaşadığı Məkkə şəhərindən əvvəlcə Beytül-müqəddəsə (indiki Qüds şəhərinə) səfər etmiş, oradan isə səmaya qaldırılmışdır. Bu səfərin birinci mərhələsi, yəni Məkkədən Beytül-müqəddəsə səfər İsra adlandırılır, oradan səmaya yüksəlişə isə Merac deyirlər.

## "Onlar adları tək işlər görərdi"

Ulu Nizaminin bu misrasını səfərin ilk saatlarında dəfələrlə xatırladım. Məni hava limanından hotelə gətirən xeyirxah və səmimi taksi sürücüsünün adı Əli, Düşənbədə daddığım ilk təamları süfrəmə gətirən xanımın adı isə Müqəddəs idi. Bu xanım hotelin qonaqlarına təqdim ediləcək bütün yemək və içəcəkləri (bir neçə çeşiddə çay, kofe, süd, şirin və ya adi sular) özü hazırlamaq və təqdim etməklə yanaşı, bütün masalara yanaşır, hamının tam sərbəst və rahat olmasına çalışırdı.

Müqəddəs Abdukadırova mənim azərbaycanlı olduğumu biləndə soruşdu ki, "İçəri şexer u vas?" Dedim: Bəli. "Bibi-Eybat u vas?". Dedim: Bəli. "İmamzoda u vas?" – dedim bəli. "İlxom ( onlar a hərflərinin hamısını o kimi işlədirlər –İ.M.) Aliev u vas?" Dedim: Bəli. Dedi: Allah sizi çox sevir".

Adını həqiqətən doğruldan bu xanım orada olduğum dörd gündə (məndən təxminən 10-15 yaş cavan olsa da) mənə öz övladına baxırmış kimi xidmət elədi.

## Dövlət xadiminin adına pul vahidi

Bəlkə də dünyanın başqa ölkələrində də belə fakt var. Amma mən indiyədək rast gəlməmişəm. ABŞ-da, Avropada, Çində, Rusiyada, Türkiyədə çox sayda tanınmış dövlət xadimləri olub. Onların bir çoxunun şəkili dövlət əsklinaslarının üstünə vurulub. Ancaq hansısa dövlətin pul vahidinin Vaşinqton, Çörçill, Pyotr, Osman, Atatürk kimi adlandırıldığını xatırlamıram. Tacikistanda isə, bu, reallıqdır. 2000-ci il oktyabrın 30-dan bəri onların pul vahidinin adı Somonidir. Bu əskinaslar dövriyyəyə buraxılanda bir somoni min tacik rubluna bərabər idi.

Orada eşitdim ki, Düşənbənin baş meydanında da böyük dövlət qurucusu İsmoil Somoninin abidəsi var, hər bir tacikin ürəyində də. Ölkəyə gələn bütün rəsmi qonaqlar da İsmoil Somoninin abidəsini ziyarət edirlər. Məmnunuq ki, Azərbaycan Prezidenti İlham Əliyev həmin meydanı dəfələrlə ziyarət etmişdir. Bundan başqa, hamının cüzdanında da somonilər var. Üstəlik, Pamirin uzun illər "Kommunizm" adlandırılan 7495 metr hündürlükdə olan yüksəkliyi də otuz ildir ki, İsmoil Somoni zirvəsi adlanır. Bu məqamda onu da xatırladaq ki, həmin zirvəni fəth edən ilk azsaylı alpinistlərdən biri də bizim soydaşımız Şirxan Məmmədovdur.

Mən isə həmin meydanda – möhtəşəm abidənin önündə şəkil çəkdirməklə yanaşı, abidənin arxa tərəfindəki xüsusi pyedestal üzərində müxtəlif rəngli mərmərlərdən hazırlanmış "İsmoil Somoninin yaratdığı dövlətin xəritəsi"nin də fotosunu çəkdim. Bu sənət əsəri üfüqi istiqamətdə hazırlandığına görə bəzi tələskən turistlərin nəzərindən yayınır. Azərbaycanlı jurnalistin isə nəzərindən yayınmadı.

## Bəs İsmoil Somoni kimdir?

Bildirilir ki, 849-cu ilin aprelində doğulub 24 noyabr 907-ci ildə dünyasını dəyişmiş Əbu İbrahim İsmayıl ibn Əhməd Samani (tacikcə Abu İbroxim İsmoil ibni Axmadi Somoni) Abbasi xəlifəsi Məmunun dönəmində Fərqanə valilisi olan Əhməd bin Əsədin kiçik oğlu idi. O, Samanilər sülaləsinin birinci əmiri olaraq həmin dövrün ən nüfuzlu hərbi lideri adını qazanmışdı.

Əlavə edək ki, IX əsrin sonlarında İsmoil Somoni Samanilər dövlətini qurub. Maraqlıdır ki, onun Türküstan əsilli olduğunu söyləyən tarixçilər çox olsa da, taciklər bu fikri qəbul etmirlər. Hər halda Samanilər dövrü Tacikistanın inkişaf tarixində xüsusi bir mərhələdir. Yerli ziyalıların fikrincə, həmin dövrü tacik ədəbiyyatının qızıl əsri hesab etmək olar. Çünki o dövrdə məşhur Rudəki və tacik ədəbiyyatının digər nəhəngləri yetişmişdi.

Sonrakı dövrlərdə isə İsmoil Somoninin yaratdığı dövlət müxtəlif işğallara məruz qalmışdı. Hətta, 1905-ci ildə Avropanın o biri başından gəlmiş ingilislər tərəfindən işğal edilmişdi. 1924-cü ildə Sovet Özbəkistanın tərkibində muxtar vilayət statusu almış, 1929-cu ildə isə Tacikistan Sovet Sosialist Respublikası yaradılmışdı.

## Düşənbənin səhəri

Bir səhər lap erkən küçəyə çıxdım. Həm sözün həqiqi mənasında hava təmiz və cəlbedici idi, həm də sakitlik adama xoş gəlirdi. 8 nömrəli avtobus və 11 nömrəli trolleybusun dayanacaqlarından biri bizim otelin lap yaxınlığında idi. Avtobusdan düşən ana və uşaqlar diqqətimdən yayınmadı. Bir ana çiynində iki məktəbli çantası aparırdı. Həm ananın özü, həm də ikinci-üçüncü sinifdə oxuduğunu güman elədiyim qızı milli tacik paltarında idi. Ümumiyyətlə, bu şəhərdə yaşayan əllidən çox olan kişilərin əksəriyyəti, qadınların isə hamısı (təbii ki, xidmət sahələrində və dövlət qulluğunda çalışanlardan başqa) ənənəvi tacik libasındadırlar.

... Ayni küçəsinin sağ tərəfində "İsra", sol tərəfində isə "Hilton" hotelləri üz-üzə dayanıblar." Buradakı "dayanıblar" ifadəsi təsadüfi deyil. Belə ki, "İsra" Şərqi, "Hilton" isə Qərbi təmsil edir. Ancaq "Hilton"-dakılar da yerli ədəb-ərkana yüksək səviyyədə əməl edirlər. Xatırladım ki, Düşənbədə turist az deyil. Ancaq burada başqa şəhərlərdə olduğu kimi, açıq-saçıq geyinmiş qadın və ya "şortikdə" gəzən kişi görmədim. Sərxoş da yoxdur, şalvarı didik-didik, dizdən yuxarısı cırıq-cırıq olan qızlar da.

## "Xalq qəzeti"ndən "Xalq qəzeti"nə

Düşündüm ki, Düşənbəyə gəlib, bu gözəl şəhərdəki həmkarlarımızla görüşmədən qayıtmaq o qədər də yaxşı olmaz. Əvvəlcədən də bilirdim ki, burada da "Xalq qəzeti" adlı mətbu orqanı var. Ancaq Prezidentin İcra Aparatı nəzdində fəaliyyət göstərən bu qəzet rus dilində nəşr olunur. Milli Dövlət Kitabxanasında olanda "Narodnaya qazeta"nın ünvanını soruşdum. "Ozodii Şark" (Azad Şərq) nəşriyyat evinin yeddinci mərtəbəsinə gedin, – dedilər. Sədi Şirazi küçəsi 16 ünvandakı həmin nəşriyyata getdim.

Xatırladım ki, ötən əsrin yetmişinci illərində tikilmiş bu nəşriyyat evi eynilə bizim "Azərbaycan" nəşriyyatı kimi şəhər mərkəzindən xeyli aralıda inşa edilmişdir və bina eynilə bizim nəşriyyata oxşayır. Düşənbənin hər addımında möcüzəyə bənzəyən tərəqqi, inkişaf olsa da, nəşriyyatın binasındakı liftlər, demək olar ki, binanın yaşıdıdır.

"Narodnaya qazeta"nın baş redaktor müavini Norqis Boyoxmedova ilə xeyli söhbət elədik. Məlum oldu ki, bu il Düşənbədəki adaşımızın – "Narodnaya qazeta"nın 100 yaşı tamam olur. Norqis xanım həm tirajın azlığından danışdı, həm də oxucu kasadlığından. Amma bu qeyrətli tacik qızı ölkəsinin hərtərəfli inkişafından sidq ürəklə söz açdı. İnandığını söylədi ki, Tacikistanın daha möhtəşəm günləri hələ qabaqdadır: "Çünki dövlət başçısı bu ölkəni inanılmaz bir tərəqqi relsi üzərinə çıxarmışdır".

## "Mən tarixi qınayanları qınayıram"

Şirinşox Amirsoyevlə "Novruz" Kütləvi Tədbirlər Mərkəzinin qarşısındakı parkda görüşdüm. Sovet dönəmində milis sistemində işləmişdir. İndi istefada olan mayordur. Bütün yaşlılar kimi, o da söhbətcildir və daha çox xatirələrini danışır. Sovet dönəmi ilə bağlı dediyi fikirlərin bəziləri ilə razılaşmadığımı deyəndə "cin atına mindi". "Nə üçün razılaşmırsan? Sovet hökuməti Heydər Əliyev kimi siyasət nəhəngini yetişdirməsəydi, doxsanıncı illərdə sizə qarşı başlanmış işğalçı müharibəni kim dayandıracaqdı? O vaxt sizə düşmənlik edən tək deyildi. Yaxud indiki Prezidentiniz İlham Əliyev sovet dönəminin ali diplomatiya təhsilini almasaydı, işğaldakı torpaqlarınızı kim azad edəcəkdi? Ona görə də yaşadığımız tarixi qınamayın, ondan dərs alın. Şəxsən mən, tarixi qınayanları qınayıram".

## Düşənbədə hansı bina daha gözəldir

O sual mənə ünvanlansa, dəqiq cavab verə bilmərəm. Çünki Prezident Administrasiyasının binası da möhtəşəmdir, parlamentin binası da, Milli Dövlət Kitabxanasının kompleksi də, "Novruz" sarayı (onlar bu mədəni tədbirlər kompleksini "Novruz KOX" adlandırırlar) da və bu kimi digər onlarca bina da. Amma son illərdə tacik sahibkarların sərmayəsi hesabına ərsəyə gəlmiş "Novruz KOX" daha möhtəşəm görünür. 2019-cu ildə bu saray Şanxay Əməkdaşlıq Təşkilatının səkkiz müasir möcüzəsindən biri kimi qəbul edilib. Üstəlik, dünyanın ən böyük saraylarından biri kimi tanınır. Tacikistanın isə ən çox turist cəlb edən ünvanıdır.

Turistlər buradakı "Didar", "Arjanq", "Gülüstan" və "Zərəndud" zallarının hansına daxil olsalar, "bu zal daha gözəldir" deyirlər. İsmoil Somoni (keçmiş Putovski) prospektində, Mərkəzi Respublika Stadionunun yanında, Qulu Covonon parkı ilə yanaşı inşa edilən 50 metr hündürlükdə olan bu memarlıq incisinin baş memarı Somidcon Oziziyondur.

5 mərtəbəni və 40 min kvadratmetr sahəni əhatə edən saray bütünlüklə yerli materialdan və tacik ustalarının əli ilə inşa edilib. Buradakı "Zərəndud" zalı daha füsunkardır. Zalın daxili hündürlüyü 38 metrdir. O hündürlükdə olan tavandan yeddi tona yaxın (6700 kiloqram) ağırlığında nəhəng çilçıraq asılıb. Çilçıraqda 1600 işıq var. 16 sütunun hamısı təmiz qızılla bəzədilmişdir.

## Etnoqrafiya muzeyində

Maraqlı məqam idi. "Tacikistan etnoqrafiyası" adlı muzeyə daxil olanda elə bildim ki, hansısa şəxsi evə girdim. Elə muzeyin direktoru Tutunisə Oşurmodovanın özü də, iş otağı da həmin təəssüratımı artırırdı.

Xatırladım ki, 1949-cu ildə Tacikistan Elmlər Akademiyasının Tarix, Dil və Ədəbiyyat İnstitutunun tarix sektorunun bazasında yaradılmış bu muzeyin hazırda 11 mindən çox eksponatı var. Həmin eksponatlar tacik xalqının və Tacikistanda yaşayan azsaylı xalqların tarixini, məişətini, ənənələrini, maddi və mənəvi mədəniyyətinin bütün sahələrini özündə əks etdirir.

## Çinarlara boy verməyən palıdlar

Çox şəhərlərdə olmuşam. Ancaq heç bir şəhərdə bu qədər çinar (tacikler də ona çinar deyirlər), palıd və cökə ağacı görə bilməmişdim. Həm park və bağların çox olduğuna görə ağac bolluğudur, həm də parklardan kənarda – küçə və prospektlər boyu yüz minlərlə çinar əkilib. Mən Qəbələdə palıdların çinar hündürlüyünə çatdığını görməmişdim. Düşənbədə isə palıdlar çinarlara boy verir. Hava limanına gedən yolun kənarı da belədir, sovet dönəmində salınmış Xalqlar dostluğu küçəsinin səkiləri də. Maraqlıdır ki, bu küçənin bir tərəfi o qədər də uca olmayan dağa doğru gedir.

Yeri gəlmişkən, keçmiş "Komsomol" parkının yerində yaradılmış nəhəng süni göl (gölün suyu dağ çaylarından gəldiyinə görə daim lillidir) ətrafında salınmış yaşıllıqların ucu-bucağı görünmür. Etiraf edim ki, oradakı onlarca ağac növünü ilk dəfə gördüm. Yeri gəlmişkən, orada turistlər daha çox idi.

... Nə isə, Düşənbədə hayana baxırsansa yenilik, müasirləşmə və inkişaf görürsən. Modernləşməyən isə tacik xalqının ənənəsi, xarakteri və xarici görünüşü – yəni libasıdır. Mən uşaqlıq və gənclik illərimdə onlar haqqında nə oxumuşdumsa, nələri eşitmişdimsə, hamısının canlı şahidinə çevrildim. Bu sətirləri xalqımızın sədaqətli dostu olan taciklərə daimi xoşbəxtlik və daha böyük uğurlar arzusu ilə tamamlayıram.

***İttifaq MİRZƏBƏYLİ***

**Bakı – Düşənbə – Bakı**



# Bir tərəfin bəhri – Xəzər...

## Ölkəmizin su sərhədləri də etibarlı qorunur

**Bu il oktyabrın 24-də Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin xidməti ərazisinə mediatur təşkil edilib. Tədbirə qatılan qonaqlar əvvəlcə hərbi hissənin ərazisində şəhidlərimizin əziz xatirəsinə ucaldılmış abidə kompleksini ziyarət ediblər, önünə güllər düzdülər.**

Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin rəisi general-leytenant Müzəffər Pirizadə konfrans zalında iştirakçılara sahil mühafizə bölmələrinin xidməti-döyüş fəaliyyəti, eləcə də suveren ərazi sularımızın təhlükəsizliyinin təmin edilməsi sahəsində görülmüş tədbirlər barədə geniş məlumat verib.

Qeyd edib ki, Azərbaycan Sərhəd Mühafizəsinin xidməti-döyüş fəaliyyətinin formalaşdırılması və inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Təsadüfi deyil ki, Ulu öndər "Vətən sərhəddən başlayır!" ifadəsini hər dəfə böyük qürurla söyləyirdi. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı sayəsində isə bu xidmət keyfiyyətcə yeni mərhələyə qədəm qoyub.

Prezident İlham Əliyevin 2005-ci il fevralın 18-də imzaladığı Fərmanla Sərhəd Gözətçi Gəmilər Dəstəsinin əsasında Sahil Mühafizəsi yaradılıb. Bununla da, dəniz sərhədlərinin etibarlı mühafizəsi, eləcə də Xəzər dənizində milli maraqlarımızın yüksək səviyyədə qorunması üçün daha geniş imkanlar yaranıb. Ardınca sahil mühafizəsinin maddi-texniki bazasının yaradılması, dənizdə sərhəd nəzarətinin təkmilləşdirilməsi üçün kompleks işlər görülüb. Hazırda Sahil Mühafizəsinin sərhəd gəmiləri və digər döyüş texnikaları daim döyüşə hazır



olmaqla, istənilən çağırışa çevik reaksiya göstərmək imkanına malikdir.

General-leytenant 2024-cü il dövlət sərhədlərinin mühafizəsi istiqamətində görülən işlərdən, əldə edilən uğurlardan danışıb. Bildirilib ki, zabit heyətinin bilik və bacarıqlarının təkmilləşdirilməsi, şəxsi heyətin döyüş hazırlığının yüksəldilməsi istiqamətində praktiki vərdişlərin artırılması, neft-qaz platformaları, neft kəmərlərinin mühafizəsi zamanı yaranmış təhdidlərin dəf edilməsi və digər məsələlərlə bağlı hər il geniş təlimlər keçirilir.

Sonra Sahil Mühafizəsi xidmətinin tarixini və fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirilib.

Baş Komanda İdarəetmə Mərkəzində radar texniki müşahidə məntəqəsinin fəaliyyəti ilə tanışlıq media nümayəndələri üçün xüsusilə maraqlı olub. Məlumat verilib ki, sərhəd pozucularının ölkəmizə daxil olmasının tam qarşısını almaq üçün bütün vasitələrdən istifadə edilir. Məntəqələrdə olan sərhədçilər ərazi sularına daxil olan tanınmayan hədəfləri, yaxud təyin olunmamış yerdən icazəsiz üzmə vasitələrini aşkarladıqda, müvafiq orqan və bölmələrə ötürürlər.

Sahil Mühafizəsi Muzeyinə tur da xoş təəssüratlar doğurub. Müxtəlif eksponatlarla zəngin olan muzeydə ayrı-ayrı dövrlərdə dənizçilərin geyimləri, raket kompleksi, hidrokostyumlar, o cümlədən DSX əməkdaşlarının təltifləri nümayiş etdirilir. Muzeyin ən qədim eksponatı 1800-cü illərə aid olan sekstantdır. Məlumat verilib ki, qədim zamanlarda, naviqasiyanın olmadığı dövrlərdə onun vasitəsilə gəminin yerini müəyyən edirmişlər.

Təlim-Tədris Mərkəzi ilə tanışlıq zamanı rabitə, şturman və digər sinif otaqlarında şəxsi heyətə keçirilən dərslər də izlənilib. Daha sonra jurnalistlər Heydər Əliyev İdeoloji Mərkəzinə baş çəkiblər.

Mediatur "Tufan" tipli sərhəd gözətçi gəmisi ilə "Şahdəniz" yatağı istiqamətinə səfərlər və digər maraqlı tədbirlərlə davam edib.

Sonda bildirək ki, Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsi fəaliyyəti ilə əyani tanışlıq mediatur iştirakçıları, eləcə də "XQ"-nin əməkdaşlarında xoş təəssüratlar yaradıb.

***LeylA URBANOVA,***
***Cavid QAÇAYEV (foto)***
***XQ***


# Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Geologiya və Geofizika İnstitutu

İstedadlı gənclər axtarır. Geofizika, tətbiqi riyaziyyat, informatika, fizika, kimya və biologiya sahəsində ali təhsil almış gənc mütəxəssisləri (magistrlər və fəlsəfə doktorları) elmi-tədqiqat işlərində iştirak etməyə dəvət edir.

Namizədlərin seçimi müsabiqə əsasında aparılacaqdır. Əmək haqqı əmək müqaviləsi əsasında ödəniləcəkdir.

Müraciət üçün son tarix – 1 dekabr 2024-cü il.

Müraciətlər – CV formasında.

Əlaqə üçün məlumat:

Telefon– 537-23-34, 510-01-41 (119).

Ünvan–AZ1143, Bakı şəhəri, H.Cavid prospekti 119.

e-mail: latifovayn@gmail.com

*Geologiya və Geofizika İnstitutu*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 236 (30640) 26 oktyabr 2024-cü il, şənbə

## İdman xəbərləri

### Cüdoçularımız 3 medal qazanıblar

**Bəhreynin paytaxtı Manama şəhərində keçirilən Gimnaziada İdman Oyunlarında cüdo yarışlarına start verilib.**



Yarışın ilk günündə Azərbaycanın iki cüdoçusu finala yüksəlib.

50 kiloqram çəki dərəcəsində çıxış edən Anar Quliyev və Məhəmməd Rüstəmli yarımfinalda rəqiblərinə qalib gələrək həlledici mərhələdə iştirak hüququ qazanıblar. Anar Quliyev komanda yoldaşı Məhəmməd Rüstəmliyə qalib gələrək qızıl medal qazanıb.

Rüstəm Qasımzadə (55 kq) isə bürünc medala sahib olub.

Qeyd edək ki, Azərbaycan oyunlarda qızlar və oğlanlar arasında 13 çəki dərəcəsində 24 cüdoçu ilə təmsil olunur. Cüdo yarışlarına oktyabrın 26-da yekun vurulacaq.

### Plovdivdə gümüş medal

**Azərbaycan velosipedçisi Tural İsrafilov Bolqarıstanın Plovdiv şəhərində keçirilən I Balkan çempionatında uğurla çıxış edib.**



Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, o, yarışda gümüş medal qazanıb.

İdmançı medalı 10 kilometr məsafədə velosipedin skretç yarışlarında əldə edib.

*L.AZAD*
*XQ*

### Güləşçimiz Dünya çempionu olub

**Albaniyanın paytaxtı Tiranada 23 yaşadək güləşçilər arasında dünya çempionatı davam edir.**




Mundialın dördüncü günündə qadın güləşi üzrə millinin son 2 üzvü xalçaya çıxıb.

Jalə Əliyeva (57 kiloqram) 1/8 finalda ukraynalı Alina Filipoviçdən güclü olub – 7:4. Həmyerlimiz növbəti mərhələdə isə türkiyəli Sevim Akbaşa heç bir şans verməyib – 10:0. Əliyeva yarımfinalda isə amerikalı Sofiya Makalusonu "tuş"la üstələyib və ardıcıl ikinci dəfə U-23 dünya çempionatının finalına yüksəlib. Jalə finalda yaponiyalı Ruka Natami ilə qarşılaşıb. Daha öncə yeniyetmələr və gənclər arasında dünya çempionu olmuş rəqiblə görüş gərgin mübarizə şəraitində keçib. Natamiyə 10:8 hesabı ilə qalib gələn güləşçimiz dünya çempionu olub.

Ruzanna Məmmədova (62 kiloqram) debütdə qırğızıstanlı Kalmira Bilimbekqızından (4:1) güclü olsa da, 1/4 finalda estoniyalı Viktoriya Vessoya 1:7 hesabı ilə məğlub olub.

***✓ "T-FİNANS LTD" MMC şirkətinin rəhbərliyi və kollektivi Türkiyənin Kahraman Kazan rayonunda Türk Aviasiya və Kosmik Sənaye şirkətində törədilmiş dəhşətli terror aktı nəticəsində həlak olan insanların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, yaralılara isə allahdan şəfa diləyirlər.***

***✓ 2022-ci ildə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi tərəfindən Hüseynəliyev Cabbar Sabir oğlunun adına verilmiş xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.***

## Dahilərin dünyası

# Əlləri ilə "görən", gözləri ilə "eşidən" bəstəkar

### *Bonapartın hansı döyüşü Bethovenin sənətinə çata bilər?*



**Dünyanı heyrətdə qoyanların, bəşəriyyətə ölməz əsərlər bəxş edənlərin taleyi, nədənsə, üzünə gülmür. Tarix isə onlara qarşı mərhəmətli davranır, yaddaşında əbədi saxlayır.**

Lüdviq van Bethoven də ömrünü taleyi ilə amansız mübarizədə keçirmiş dahilərdən idi. Atası olduqca əzazil adam idi, balaca Lüdviqi həmyaşıdlarından təcrid edib ev dustağına çevirmişdi. Lüdviq notları əlifbadan əvvəl öyrənmişdi. Zalım ata onu məcbur edirdi ki, fasiləsiz məşqlər eləsin, pianoda səhvsiz ifa etməyi öyrənsin. Lüdviq əsəbindən ağlayırdı. Var qüvvəsi ilə inadkarcasına barmaqlarını klavişlərə çırpırdı. Atasının tələbi bu idi – o, dahi pianoçu olmalıdır!

Amma bəxti onda gətirmişdi ki, yaxşı müəllimləri olmuşdu. Simfoniya janrının banilərindən olan Vyana klassik məktəbinin nümayəndəsi Yozef Haydn Bethovenin sənət karyerasında həlledici rol oynayıb. Lüdviqi başqalarından fərqləndirən cəhət bu idi ki, o, azad ruhlu idi, saray musiqiçisi olmaq onun təbiətinə yad idi. Müəllimi ona deyirdi ki, "bacarmıram, istəmirəm, bilmirəm" kimi sözləri dilinə gətirməyi qadağan et. Yüz dəfə müvəffəqiyyətsizliyə uğrasan, yüz dəfə təzədən başla. Ona sənətdə istiqamət vermiş orqan ifaçısı Nefe Bethoveni Vyanaya getməyə həvəsləndirir. Vyanada onu şöhrət gözləyirdi...

Lüdviq var qüvvəsi ilə biliklərini artırmağa çalışırdı. Artıq onu "ikinci Motsart" adlandırırdılar. Lakin o, sıxıntılar içində yaşayırdı. Vyanaya gəlib Motsartla görüşür. Motsart əvvəlcə ona inamsız yanaşır, lakin onu qəbul edib ifasını dinləyəndən sonra gənc pianoçuya heyran qalır. Bu görüş Bethovenin həyatında əlamətdar hadisə idi. Bethoven ömrünün sonuna qədər bu görüşü unuda bilmədi. Bethoven şöhrətin zirvəsinə çatanda Motsart artıq həyatda yox idi. O, Motsartın məzarını ziyarət etmək istəyir. Məzarlıqda onun qəbrini axtarıb tapa bilmir. Məzarçı ona deyir ki, Motsartı ümumi məzarda dəfn ediblər, onun məzarının yeri məlum deyil. Bu hadisə Bethovenin həyatının ən böyük sarsıntılarından idi. Dünyanı öz musiqiləri ilə fəth edən bir dahi necə ola bilərdi ki, belə urvatsız dəfn ediləydi?! Tale bu qədər amansız imiş!..

Antoni Zqorjun "Tale ilə təkbətək" romanı Bethovenin həyatının demək olar ki, bütün məqamlarını özündə əks etdirir. Romanda onun bir sıra görkəmli şəxsiyyətlərlə görüşləri təsvir edilir. Bethovenin böyük alman şairi Höte ilə görüşü bu iki sənətkarın bir-birinə bağlı olduğu qədər fərqli siniflərə mənsub olduqlarını göstərir və Höte ilə görüşə can atan bəstəkar onunla görüşdən sonra xəyal qırıqlığına uğrayır. Hötenin fikirləri azad ruhlu bəstəkarın düşüncələri ilə ziddiyyət təşkil edir. Bethoven bu görüşdən dərin sarsıntı içində ayrılır. Ən böyük sarsıntı isə xəstəliyin onu qəfil yaxalaması idi. Qulaqları tədricən zəifləyən bəstəkar dərin depressiya yaşasa da, bir-birinin ardınca simfoniyalar yazmağa davam edir. Terezanın sevgisi ona mənəvi güc verir. "Qəhrəmanlıq simfoniyası"nı, "Appassionata"nı, "Beşinci simfoniya"nı yazır.

"Doqquzuncu simfoniya"nı yazanda bəstəkarın qulaqları, demək olar ki, tamamilə tutulmuşdu. Cəmiyyət içində söhbətlər dolaşırdı ki, Bethoven dəli olub. Deyirdilər ki, axı nə üçün siz sağlam düşüncənin ziddinə olaraq simfoniyaya oxuma daxil etmək istəyirsiniz? O isə deyirdi ki, bunu simfoniyanın ideyası tələb edir, mən mahnını simfoniyanın əsas məzmununa daxil edirəm. İndiyə qədər bəstəkarlardan heç biri bunu etməmişdi. O, bununla yenilik etmək istəyirdi. Onu anlamaq istəmirdilər. Bethoven deyirdi: "Mən daha inandırıcı vasitələr tapmalıyam. Mən insanlara demək istəyirəm ki, biz hamımız iztirab çəkmək və sevinmək üçün doğulmuşuq. Lakin bizlərdən ən böyükləri o kəslərdir ki, onlar iztirab içində olanda da sevinc tapmağı bacarır".

Gurultulu alqışlardan zal titrəyirdi. Bethoven isə bu alqışları eşitmirdi, yalnız əlləri görürdü...

Fransız yazıçısı Romen Rollan bu əsər haqqında belə deyir: "Hansı qələbəni bu qələbəyə tay tutmaq olar? Bonapartın hansı vuruşması bu fövqəlbəşər əsərin, insan ruhunun nə zamansa qazandığı bu parlaq qələbənin şöhrətinə çata bilər?!"

Sonda Bethoven qalib gəldi. "Doqquzuncu simfoniya" onun dünyaya vida sözü idi...

*Kənan HACI,*
*yazıçı-publisist*

## Payız lövhələri




### Abşeronda çiskin, bölgələrdə yağış, duman və külək

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, oktyabrın 26-da Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi, lakin gündüz bəzi yerlərdə çiskinli olacağı, axşam isə arabir yağış yağacağı gözlənilir.**



Yarımadanın bəzi yerlərində leysan xarakterli olacağı, şimşək çaxacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək, axşama doğru arabir güclənəcək. Gecə 10-13°, gündüz 14-16° isti olacaq. Atmosfer təzyiqi 764 mm civə sütunundan 769 mm civə sütununa yüksələcək, nisbi rütubət gecə 70-80, gündüz 60-65 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 5-10°, gündüz 13-17° isti, dağlarda gecə 1° şaxtadan 4°-dək isti, gündüz 4-8° isti olacaq.

*Q.QASIMOV*
*XQ*

# Aralıq dənizi pəhrizi nədir?

**Aralıq dənizi pəhrizi ürək və metabolik xəstəliklər riskini azaldır. Tədqiqatçılar həmin reseptə riayət etməklə, 2 və ya daha çox kardiometabolik xəstəliyin inkişaf riski arasındakı əlaqəni araşdırıblar.**



Məlum olub ki, Aralıq dənizi pəhrizi kardiometabolik xəstəliklə yanaşı, elmlə məşğul olan insanlar arasında yaranan bir çox xəstəliklərin də qarşısını alır. Pəhrizin 10 il ərzində 0,67 və 15 il müddətində isə 0,80 təhlükə göstəricilərinə qarşı qoruyucu təsirləri aşkar edilib.

Qeyd edək ki, Aralıq dənizi ölkələrində tətbiq olunan pəhriz sistemində əsas üstünlük qatqısız taxıllara, meyvə və tərəvəzə, zeytun yağına, paxlalılara və sairəyə verilir. Şəkər əvəzinə, baldan istifadə olunur. Bura balıq, dəniz məhsulları, quş əti və az miqdarda qırmızı ətdə olan sağlam heyvan zülalları, keçi və qoyun südü məhsulları daxildir.

Yeməklərdən əlavə, gündə 1 stəkandan çox olmayaraq qırmızı şərab və gündə, ən azı, 6 stəkan su qəbul edilir. Vacib şərtlərdən biri də fiziki hərəkətlərlə gündə 1800-dən 2500-ə qədər kalori itirməkdir.

*Z.HÜSEYNLİ*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

Şirvan şəhərindən İlqar Abbasov Maliyyə Nazirliyinin büdcə şöbəsinin müdiri Fazil Fərəcova həyat yoldaşı

**FLORA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin maliyyə və audit kafedrasının müdiri, professor Əvəz Ələkbərov Maliyyə Nazirliyinin büdcə şöbəsinin müdiri Fazil Fərəcova həyat yoldaşı

**FLORA XANIMIN**

vəfatından kədərləndiyni bildirir və dərin hüznlə başsağlığı verir.

**BAŞ REDAKTOR**
**ƏFLATUN AMAŞOV**

**TELEFONLAR:**
**Reklam və elanlar: 493-82-21**
**Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29**
**Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com**
**Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az**
**+994(51) 280-16-44**

**"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.**

**ÜNVANIMIZ:**
**AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.**
**Şəhadətnamə 022273**

**İNDEKS 0282**
**TİRAJ 4002**
**SİFARİŞ 2375**
**QİYMƏTİ 60 qəpik**

**Növbətçi redaktor**
**Məsaim ABDULLAYEV**
**Çapa imzalanmışdır 00:00**